www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 mart 2016-cı il Çərşənbə № 66 (6387) Qiymәti 60 qəpik

**Xəbər**

## Azərbaycana qarşı yeni separatçılıq kartı işə salınıb - iddia

yazısı səh.9-da

**Gündəm**

### Prezident Mədəniyyət və Turizm Nazirliyinin strukturunu dəyişdi



Nazirliyin rayon şöbələri ləğv edilir və onların bazasında regional idarələr yaradılır

yazısı səh.3-də

### QHT-lərə "yaşıl işıq" - vətəndaş cəmiyyətinə qarşı yumşalma...

yazısı səh.4-də

### Samir Şərifovun "agent" iddiasına cavab verməməsinin sirri

yazısı səh.5-də

### İqtidar-müxalifət dialoqu məsələsi yenidən gündəmə gəldi

yazısı səh.6-da

### Bakıda 96 ailənin məskunlaşdığı yataqxana hər an çökə bilər...

yazısı səh.4-də

### Ərdoğan Vaşinqtonda Obama ilə görüşəcək

yazısı səh.9-da

### Manat bahalaşmağa başladı

yazısı səh.2-də

### Siyasi fəalların azadlığa çıxması müxalifətin güclənməsinə təsir edəcəkmi...

yazısı səh.4-də

### Milli Şura rəhbərliyi Rüstəm İbrahimbəyovla görüşə bilməyib

yazısı səh.10-da

### Bakı yenə yağış suları altında qaldı

yazısı səh.13-də

### "Prezidentlərin Vaşinqton görüşü olacaq" xəbərinə işğalçının təxribat-diversiya "cavabı"

yazısı səh.7-də

**Türkiyə-Azərbaycan müttəfiqliyinə şimaldan ilginc reaksiya**

# KREMLDƏN BAKIYA QARABAĞ HƏDƏSİ - "GÜRCÜSTAN SSENARİSİ" TƏKRARLANA BİLƏR!.."

Putinə yaxın nüfuzlu siyasi-analitik qurumun hazırladığı məruzədə "Müharibə başlasa, Rusiya Ermənistanın yanında olacaq, Bakı və Moskvanın maraqları kəskin toqquşacaq" xəbərdarlığı yer alıb; prezidentlərin Amerika görüşünün düyünə düşməsinin daha bir səbəbi üzə çıxır...




yazısı səh.8-də

# MSK müəmması: Məzahir Pənahovun yerinə o gəlir...

Son parlament seçkilərindən 4 ay keçsə də, Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin formalaşdırılması yubanır; "2015-ci il parlament seçkilərindən sonra özüm gedəcəm" deyən 16 illik sədri yola salmaq üçün səbəblər də var...

yazısı səh.5-də



*Ərəstun Oruclu:*

### "Əlixan Musayev məsuliyyətə cəlb olunmalıdır"

yazısı səh.3-də



*Mehman Əliyev:*

### "Ölkə iqtidarı Qərbin qarşısında geri çəkilmir, sadəcə, reallığı dərk edir"

yazısı səh.6-da



*Hacıbaba Əzimov:*

### "İşdən çıxarılan rektorun Rusiyanın agenti olan adamlarla qohumluğu var"

yazısı səh.10-da

# ATƏT PA: "İntiqam Əliyevin azadlığa buraxılması çox vacib və müsbət addımdır"



**"İntiqam Əliyevin azadlığa buraxılması həm özü, həm də Avropa İnsan Haqları Məhkəməsidə daxil olmaqla, hüquqlarını müdafiə etməyə davam edən şəxslər adına çox vacib və müsbət addımdır".**

APA-nın məlumatına görə, bu barədə ATƏT Parlament Assambleyasının Demokratiya, İnsan Haqları və Humanitar Məsələlər Komitəsinin sədri İsabel Santosun bəyanatında deyilir.

O bildirib ki, indi İntiqam Əliyevin Azərbaycan vətəndaşlarının mülki hüquqlarını müdafiə etmək işinə qayıda biləcəyinə ümid edir.

ATƏT PA-nın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Vigenin isə əfv sərəncamının ardından İntiqam Əliyevin azadlığa buraxılmasını hökumətin tək beynəlxalq ictimaiyyət deyil, həm də öz əhalisi ilə işləməyə hazır olduğunun göstəricisi hesab etdiyini vurğulayıb.

## Şəhid hərbçinin təltif olunduğu medal ailəsinə təqdim olundu



**Müdafiə nazirinin şəhid kiçik çavuş Abbaszadə Elşad Raquf oğluna ölümündən sonra xidmətdə fərqlənməyə görə layiq gördüyü "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal dünən ailəsinə təqdim olunub.**

APA-nın Qarabağ bürosunun xəbərinə görə, mərasim şəhidin böyüdüyü Tərtər rayonunun Kəngərli kəndində təşkil olunub. Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, rayon icra hakimiyyətinin əməkdaşları, kənd sakinləri və şəhid E. Abbaszadənin hərbçi dostları iştirak edib. MN-in tərbiyə işləri idarəsinin rəisi, polkovnik Abdulla Qurbani "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin qardaşı Rəşad Abbaszadəyə təqdim edib.

Qeyd edək ki, Elşad Abbaszadə martın 25-də qoşunların təmas xəttinin Tərtər rayonu istiqamətində cəbhə xəttini yarmağa cəhd edən erməni diversiya-təxribat qrupunun qarşısını alarkən şəhid olub.

## Nardaranda oğurluq edən dəstə tutuldu: aralarında ata-oğul da var



**Nardaranda oğurluqla məşğul olan dəstə zərərsizləşdirilib. Musavat.com-un məlumatına görə, tutulanlar arasında ata və oğul da var.**

Sabunçu Rayon Polis İdarəsinin (RPİ) 42-ci Polis Bölməsinin əməkdaşlarının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Nardaran qəsəbəsi bağlar massivində Bakı şəhər sakini Namiq Fərəcullayevə məxsus evdən 40 metr elektrik naqili, 1 ədəd elektrik cihazı və geyim əşyaları oğurlayan paytaxt sakinləri - Qəhrəman Quliyev, onun oğlu Əmrah, Hüseyn Əsədov və əvvəllər məhkum olunmuş Zahid Cəbrayılov tutularaq istintaqa təqdim ediliblər.

Aparılan araşdırmalar zamanı dəstə üzvlərinin Nardaran qəsəbəsində daha 2 mənzildən elektrik kabeli, habelə martın 22-nə keçən gecə fərdi yaşayış evindən 120 metr elektrik naqili oğurlamaları da müəyyən edilib. Ümumilikdə saxlanılan şəxslərin qəsəbə ərazisində yeni tikilməkdə olan 15-ə yaxın həyət evindən oğurluq etdikləri məlum olub.

Qeyd edilən faktla bağlı Sabunçu RPİ-nin İstintaq Şöbəsində cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

## "Son zəng"in vaxtı açıqlandı

**Bu il ümumi təhsil müəssisələrində "Son zəng" tədbirinin keçiriləcəyi vaxt açıqlanıb.**

Təhsil Nazirliyindən "Report"a verilən məlumata görə, Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 362 nömrəli qərarı ilə "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə edilən dəyişikliyə əsasən, ümumtəhsil məktəblərində dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır.

"Bununla əlaqədar "Son zəng" tədbirləri iyunun 14-də keçiriləcək", - deyə nazirlikdən bildirilib.

## PKK-çılar AKP-nin rayon təşkilatı sədrini qaçırtdılar

**PKK yaraqlıları Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) İspir rayonu üzrə rəhbəri Salih Zeki Çetinkayanı qaçırıblar.**

Azvision.az bildirir ki, bunu partiyanın Ərzurum bölgə rəhbəri Fatih Yeşilyurt deyib.

Onun sözlərinə görə, Çetinkaya, qardaşı Şahin Çetinkaya və başqa bir adamla Ərzurumdan Şanlıurfaya getdiyi zaman avtomobili yolda terrorçular tərəfindən saxlanılıb: "Avtomobili saxlayan PKK-çılar şəxsiyyət vəsiqələrini yoxlamağa başlayıblar. Yoxlama zamanı onun AKP vəsiqəsi əlindən alınıb. "Hansınız sədrsiz" deyə sual veriblər. Salih Zeki də vəsiqənin ona aid olduğunu deyib. Onun gözlərini bağlayıb aparıblar".

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur

## Ərdoğan: "Rza Zərrabın həbsinin Türkiyə ilə əlaqəsi yoxdur"



**"Rza Zərrabın həbsinin Türkiyə ilə heç bir əlaqəsi yoxdur". APA-nın "Milliyet"ə istinadən verdiyi xəbərə görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-da həbs edilən iranlı iş adamı Rza Zərrabla bağlı sualı cavablandırarkən deyib.**

R.T.Ərdoğan Fətullah Güləni nəzərdə tutaraq çirkli pulların yuyulması ilə məşğul olan cinayətkar qrupun əslində ABŞ-ın Pensilvaniya ştatında olduğunu bildirib: "Bu məsələnin əsl səbəbini bilmədən hər hansı fikir bildirməyi doğru hesab etmirəm. Ancaq çirkli pulların başında dayananlar ABŞ-da, Pensilvaniyada yaşayır. Görəsən, bununla bağlı oradakı səlahiyyətli orqanlar nəsə edibmi? Əvvəlcə bu adamlarla bağlı addımlar atsınlar".

**Türkiyə prezidenti çirkli pulların yuyulması ilə əlaqədar bəzi şəxslərin Türkiyədə həbs olunduğunu, bəzilərinin isə qaçdığını deyib:** "Təəssüf ki, dostumuz Amerikanın rəsmiləri bu məsələdə həssaslıq göstərmədilər. Rza böylə əlaqədar isə bir məsələ varsa, hər halda, onun vəkilləri lazımi cavabı verəcəklər. Ancaq mən dəqiq söyləyə bilərəm ki, bu məsələnin Türkiyə ilə heç bir əlaqəsi yoxdur".

## 18 yaşlı gənc özünü güllələdi

**Lerik rayon sakini ehtiyatsızlıqdan özünü güllələyib. APA-nın cənub bürosunun məlumatına görə, hadisə dünən saat 18.00 radələrində rayonun Livədirqə kəndində qeydə alınıb.**

Kənd sakini, 1998-ci il təvəllüdlü Elcan İzzət oğlu Zahidov ov tüfəngini təmizləyərkən tüfəng açılıb və güllə ona dəyib.

Nəticədə E. Zahidov yaralanıb. O, xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Lerik Rayon Prokurorluğunda araşdırma aparılır.

## Putin: "Ötən il 14,5 milyard dollarlıq silah və hərbi texnika satmışıq"

**2015-ci ildə Rusiya 14,5 milyard dollarlıq hərbi təyinatlı məhsullar ixrac edib.**



APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, bunu Rusiya prezidenti Vladimir Putin xarici ölkələrlə hərbi-texniki əməkdaşlığa dair prezident komissiyasının iclasında deyib.

Onun sözlərinə görə, bu rəqəm nəzərdə tutulan göstəricidən çoxdur: "Rusiya döyüş silahlarının dünya bazarına çıxarılması baxımından dünya ölkələri arasında ikinci yeri tutur. Bununla yanaşı, Rusiya özündən sonrakı ölkələrdən xeyli irəlidədir".

## Almaniya-Polşa sərhədində partlayış baş verdi

**Polşa ilə sərhədin yaxınlığında, Almaniyanın Hohenvutzen şəhərindəki feyerverklər mağazasının yaxınlığında partlayış baş verib.**



Virtualaz.org hadisə şahidlərinin twitterdə paylaşdıqları məlumata əsasən partlayış nəticəsində beş nəfər xəsarət alıb.

Sərhəddən gediş-gəliş müvəqqəti dayandırılıb.

## Azərbaycan, Rusiya və İran XİN başçılarının Bakı görüşünün gündəliyi məlum olub

**Azərbaycan, Rusiya və İran xarici işlər nazirlərinin bu yaxınlarda Bakıda baş tutacaq üçtərəfli görüşündə müzakirə olunacaq əsas məsələlər məlum olub.**

XİN-in mətbuat katibi Hikmət Hacıyev APA-ya bildirib ki, toplantıda üçtərəfli regional əməkdaşlıq, xüsusilə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı və digər qarşılıqlı faydalı əməkdaşlıq layihələri əsas müzakirə mövzuları olacaq.

Görüşün dəqiq tarixi hələlik məlum deyil.

## Qubada mikroavtobus "KamAZ"la toqquşdu: 15 yaralı

**Qubada sərnişin avtobusu yük maşını ilə toqquşub. ANSPress-in məlumatına görə, hadisə rayonun Qaraçay kəndi ərazisində qeydə alınıb.**

Rayon mərkəzi - Küçeyi kəndi istiqamətində sərnişindaşıma fəaliyyəti ilə məşğul olan 1950-ci il təvəllüdlü Sayəddin Beyrut oğlu İmaniyevin idarə etdiyi "PAZ" markalı avtobusla 1969-cu il təvəllüdlü Səsahəd Ataxan oğlu Qaraxanovun idarə etdiyi 10 -ZG - 578 dövlət nömrə nişanlı yük maşını toqquşub. Qəza zamanı avtobusda olan 15 nəfər sərnişin müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ancaq onların xəsarətləri yüngül olduğundan heç kim xəstəxanaya müraciət etməyib.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsində araşdırmalara başlanılıb.

Qəzaya ilkin ehtimal yolun sürüşkən olması göstərilir.

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi iş yoldaşları Bəhruz Quliyevə əmisi Nadir bəyin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## Mərkəzi Bankın departamenti ləğv olundu

**Azərbaycan Mərkəzi Bankının (AMB) departamentlərindən biri ləğv olunub. AMB-dən fins.az-a verilən məlumata görə, söhbət kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentindən gedir. Ləğvetməyə səbəb onun səlahiyyətlərinin Maliyyə Bazarlarına Nəzarət Palatasına verilməsidir.**

## ADB Cənub Qaz Dəhlizinə 450 mln. dollar ayıracaq

**Asiya İnkişaf Bankı (ADB) yaxın vaxtlarda Xəzər dənizində yerləşən "Şahdəniz" yatağında qaz hasilatının artırılması layihəsi üçün Azərbaycana 450 mln. ABŞ dolları həcmində kredit ayıra bilər.**

"Report"un ADB-nin Bakı ofisindən əldə etdiyi məlumata görə, layihə üzrə məsul şəxs ADB-nin Özəl sektor əməliyyatları Departamentinin mütəxəssisi Anirudha Patil (Anirudha Patil) müəyyən edilib.

Layihə çərçivəsində 26 sualtı quyunun qazılması, iki dəniz platformasının, qaz və kondensat sualtı kəmərlərinin tikintisi, Səngəçal terminalının genişləndirilməsi, gündəlik gücü 900 mln. kubfut olan 2 ədəd qaz kompressorunun quraşdırılması və onların Cənub Qaz Dəhlizinə (SGC) birləşdirilməsi nəzərdə tutulur.

ADB bu layihənin 2014-2018-ci illər üçün müəyyən edilmiş Azərbaycanla ölkə tərəfdaşlıq strategiyasına daxil olduğunu da açıqlayıb.

## Manat bahalaşmağa başladı

**Azərbaycan Mərkəzi Bankı manatın martın 30-na olan rəsmi məzənnəsini açıqlayıb.**

Mərkəzi Bankdan axar.az-a verilən məlumata görə, martın 30-na 1 ABŞ dollarının rəsmi məzənnəsi 1,5586 manat səviyyəsində müəyyən olunub.

Qeyd edək ki, 1 ABŞ dolları bu gün 1,5737 manata bərabər olub.

## İstehlakçıların suölçən cihazlarla təmin edilməsi üçün 12 milyon manat ayrılıb

**Azərbaycan prezidenti İlham Əliyev istehlakçıların suölçən cihazlarla təmin edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, əhali qrupu istehlakçılarının suölçən cihazlarla təmin edilməsi üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 12,0 (on iki) milyon manat ayrılıb.

YENİ MÜSAVAT
N 66 (6387) 30 mart 2016

# Prezident Mədəniyyət və Turizm Nazirliyinin strukturunu dəyişdi

## Nazirliyin rayon şöbələri ləğv edilir və onların bazasında regional idarələr yaradılır

**Prezident İlham Əliyev Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir:**

- Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”na uyğun olaraq mədəniyyət sahəsində şəffaf və səmərəli idarəetmə sistemi formalaşdırmaq, Mədəniyyət və Turizm Nazirliyinin strukturunu təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin bazasında Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi yaradılsın.

2. Mədəniyyət və Turizm Nazirliyinin aşağıdakı regional idarələri yaradılsın:

2.1. Sumqayıt şəhər, Abşeron, Xızı, Zəngilan, Qubadlı və Şuşa rayon mədəniyyət və turizm idarə və şöbələrinin bazasında Sumqayıt Regional Mədəniyyət və Turizm İdarəsi;

2.2. Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayon mədəniyyət və turizm şöbələrinin bazasında Xaçmaz Regional Mədəniyyət və Turizm İdarəsi;



2.3. İsmayıllı, Ağsu, Şamaxı, Qobustan və Qəbələ rayon mədəniyyət və turizm şöbələrinin bazasında İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsi;

2.4. Şəki şəhər, Oğuz, Qax, Zaqatala və Balakən rayon mədəniyyət və turizm şöbələrinin bazasında Şəki Regional Mədəniyyət və Turizm İdarəsi;

2.5. Kürdəmir, İmişli, Füzuli, Beyləqan və Xocavənd rayon mədəniyyət və turizm şöbələrinin bazasında Kürdəmir Regional Mədəniyyət və Turizm İdarəsi;

2.6. Ağstafa, Qazax və Tovuz rayon mədəniyyət və turizm şöbələrinin bazasında Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsi;

2.7. Şəmkir, Göygöl, Gədəbəy və Daşkəsən rayon mədəniyyət və turizm şöbələrinin bazasında Şəmkir Regional Mədəniyyət və Turizm İdarəsi;

2.8. Gəncə və Naftalan şəhər, Samux, Goranboy, Kəlbəcər və Xocalı rayon mədəniyyət və turizm idarə və şöbələrinin bazasında Gəncə Regional Mədəniyyət və Turizm İdarəsi;

2.9. Yevlax və Mingəçevir şəhər, Bərdə və Tərtər rayon mədəniyyət və turizm şöbələrinin bazasında Bərdə Regional Mədəniyyət və Turizm İdarəsi;

2.10. Ağcabədi, Ağdam və Laçın rayon mədəniyyət və turizm şöbələrinin bazasında Ağcabədi Regional Mədəniyyət və Turizm İdarəsi;

2.11. Ağdaş, Ucar, Zərdab və Göyçay rayon mədəniyyət və turizm şöbələrinin bazasında Ağdaş Regional Mədəniyyət və Turizm İdarəsi;

2.12. Şirvan şəhər, Sabirabad, Saatlı, və Hacıqabul rayon mədəniyyət və turizm şöbələrinin bazasında Sabirabad Regional Mədəniyyət və Turizm İdarəsi;

2.13. Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayon mədəniyyət və turizm şöbələrinin bazasında Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsi;

2.14. Masallı, Yardımlı və Cəlilabad rayon mədəniyyət və turizm şöbələrinin bazasında Masallı Regional Mədəniyyət və Turizm İdarəsi;

2.15. Lənkəran şəhər, Astara və Lerik rayon mədəniyyət və turizm şöbələrinin bazasında Lənkəran Regional Mədəniyyət və Turizm İdarəsi.

3. Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin, Mədəniyyət və Turizm Nazirliyinin regional idarələrinin abidə mühafizəçiləri ştatları Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə verilsin.

Nazirlər Kabinetinə, Ədliyyə Nazirliyinə və Maliyyə Nazirliyinə bu sərəncamların icrası və həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

# Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbərliyinə yeni təyinatlar oldu

**Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə İlqar Nazim oğlu Muradov Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Direktorlar Şurasının üzvü təyin edilib. “APA-Economics” xəbər verir ki, digər sərəncamla İbrahim Əsəd oğlu Alışov Palatanın baş icraçı direktoru vəzifəsinə təyin edilib.**

İlqar Muradov 1971-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Texniki Universitetini və Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə-kredit fakültəsini fərqlənmə diplomu ilə bitirib. İ. Muradov müxtəlif rəhbər vəzifələrdə, o cümlədən Milli Depozit Mərkəzinin İdarə Heyəti sədrinin müavini, təyinatdan əvvəl isə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi sədrinin müavini vəzifəsində çalışıb.

İbrahim Alışov 1967-ci ildə Sumqayıt şəhərində anadan olub. N.A.Voznesenskiy adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialını bitirib. Əmək fəaliyyətinə Sumqayıt şəhəri Dövlət Vergi Müfəttişliyində başlayan İ. Alışov sonradan bank sektorunda müxtəlif vəzifələrdə işləyib. 2016-cı ildən “Caspian Development Bank”ın Müşahidə Şurasının sədri vəzifəsini icra edib.

Xatırladaq ki, bundan öncə Nigar Ramiz qızı Məmmədova Palatanın Direktorlar Şurasının sədr müavini təyin olunub.

# Hüquq-mühafizə orqanları Əlixan Musayevin çağırışına rəy bildirmir

## Ərəstun Oruclu: “Belə çağırışın müəllifi qanunla nəzərdə tutulan məsuliyyətə cəlb olunmalıdır”

**“Əbubəkr” məscidinin imamının keçmiş müavini Əlixan Musayevin “Suriya cihadı” mövzusundakı səs yazısı müzakirə mövzusuna çevrilib. Məsələyə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının çox ciddi şəkildə reaksiya verməsi mövzunun aktuallığını bir qədər də artırdı. Komitə sədri məsələni araşdıracaqlarını, hüquq-mühafizə orqanlarına müraciət edəcəklərini bildirib.**




**Sitat:** “Suriyada, İraqda radikal qrupların tərkibində vuruşub həlak olanlara şəhid deyən adamın özü həmin radikal qruplarla eyni fikirdədir. Bu, yolverilməzdir. Belə fikirlər səsləndirən adamlar İslama aid olmayan, İslamı parçalanmaya sövq edən adamlardır. Əlixan Musayev və onun kimi adamların bu cür çağırışları ilə hüquq-mühafizə orqanları məşğul olmalıdır”.

Gündəmi qarışdıran səs yazısında digər dini məzmunlu fikirlərlə yanaşı, “Sən getmirsənsə, bu başqa məsələ, bunun səbəbi var. Səbəbin birincisi odur ki, orda gedən cihad oranın əhli üçün vacibdir... Ayıbdır. Qorxursansa deməyə ki, onlar Allah yolunda vuruşur, mücahiddir, inşallah şəhiddir, onlar cənnətlikdir, əleyhinə də demə də, qardaş. Sabah şəhidlər sənin xirtdəyindən yapışacaq ki, nəyə görə sən mənim haqqıma girirsən?.. Bütün müsəlmanlar ayağa qalxıb müsəlman qardaşlarına kömək etməlidir” - fikirləri də yer alır.

Həmin səs yazısının Ə.Musayevə məxsus olub-olmamasını dəqiqləşdirmək üçün onunla telefonla əlaqə yaratmağa çalışdıq. Lakin Ə.Musayevin telefonu bağlı olduğundan dəqiqləşdirmə apara bilmədik. Ə.Musayevin fecebookdakı səhifəsində əlaqə bölümü qapalı olduğundan sosial şəbəkə üzərindən də belə bir dəqiqləşdirmə aparmaq imkanımız olmadı.

Bununla belə, Ə.Musayevin yayılan səs yazısına sosial şəbəkə vasitəsilə münasibətinin açıqladığını söyləməyə əsas verən qeydi ilə tanış olduq.

**O, facebookdakı divarında 27 mart 18.01-də “İŞİD-ə qoşulduğu deyilən Əlixan Musayev danışdı” xəbərinin keçidini paylaşıb. Həmin keçiddə Ə.Musayevin 2014-cü il iyunun 20-də barəsində yayılan xəbərlərə münasibəti yer alır. Keçiddəki münasibəti təqdim edirik.**

**Sitat:** “Kim mənim haqqımda nə deyir, nə yazır, onların hamısına cavab verməli deyiləm. Münafiqlərə baş qoşmaq, onların səviyyəsinə enmək dinimizə görə düzgün deyil”.

Ə.Musayevin 2 il əvvəl açıqladığı münasibəti yenidən paylaşması son səs yazısına reaksiyası kimi qəbul etmək olar. Bundan başqa, youtube kanalında 26 mart 2016-cı ildə “Əlixan Musayev - Suriyada Cihaddır zapisinə cavab - Yeni” sərlövhəsi altında səs yazısı yerləşdirilib. Həmin 5 dəqiqə 21 saniyəlik səs yazısında Əlixan Musayev yayılmış gizli səs yazısının ona məxsusluğunu inkar etmir. Səs yazısının 4 dəqiqəsinin 10-cu saniyəsində isə deyir: “Bu səs yazısını yayan müxbirin özü vaxtilə məsciddə teravih namazını qıldırdıqda, axırında qunut duası etdikdə minlərlə insanın qulağı eşidə-eşidə mücahidlər üçün dualar edib”.

Yayılan səs yazısından sonra Ə.Musayevin facebook səhifəsində yerləşdirdiyi keçid və digər səs yazısı onun “Suriya cihadı” mövzusunda qeyd edilən fikirləri söylədiyini deməyə əsas verir.

Ümumiyyətlə, belə fikirləri söyləyənlərə qarşı hansı hüquqi addımlar atılmalıdır? Müvafiq dövlət qurumlarının belə fikirlər səsləndirən şəxslərə qarşı mövqeyi necə olmalıdır?

**Mövzunu musavat.com-a şərh edən “Şərq-Qərb” Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu bildirib ki, bir neçə gün əvvəl yayılmış səs yazısı ilə tanışdır:** “Hüquqi nöqteyi-nəzərdən Azərbaycan vətəndaşlarının istənilən qeyri-qanuni silahlı birləşmələrdə, qruplaşmalarda iştirakı cinayət əməli sayılır. Cinayətə çağırışın özü də cinayətdir. Bu tip çağırışları, müraciətləri edən istənilən şəxsi dövlət orqanları nəzarətə almalıdırlar. Mən çağırışla mətbuatda tanış olub dinlənmişəm. Həmin çağırışı edənin kimliyi haqda bir söz deyə bilmərəm, çünki bu sahə üzrə ekspert deyiləm. Amma kimliyindən asılı olmayaraq, bu əməlin sahibi qanunla nəzərdə tutulan məsuliyyətə cəlb olunmalıdır”.

**Ə.Oruclu bildirib ki, ölkədən gedərək terrorçu qruplaşmalara qoşulanların olduğu bir vaxtda belə çağırışlar yolverilməzdir:** “Bu, Azərbaycan üçün çox ciddi məsələdir. Çünki yüzlərlə vətəndaşımız xaricə gedərək orada terrorçu qruplaşmalara qoşulub döyüşürlər. Özlərini, ailələrini təhlükəyə atmaqla yanaşı, geri döndükdən sonra ölkə üçün təhdid mənbəyinə, təhlükəyə çevrilirlər. Belə şəxslər beynəlxalq terror şəbəkəsinin ölkə ərazisinə nüfuz etmələri üçün körpü rolunu oynaya bilirlər. Bu baxımdan belə çağırışlar yerindəcə aşkarlanmalı və belə çağırış edənlər cəzalarını almalıdırlar”.

Əməkdaşımızın hüquq-mühafizə orqanları ilə əlaqə saxlayıb, onlardan Ə.Musayevin məlum çağırışına rəy almaq cəhdləri alınmayıb.

❑ E.MƏMMƏDƏLİYEV

# QHT-lərə “yaşıl işıq” - vətəndaş cəmiyyətinə qarşı yumşalma...

## Təşkilat rəhbərləri qərara münasibətlərini açıqladılar; rəylər fərqlidir...

**Bir neçə gün əvvəl bəzi QHT rəhbərlərinin ölkəyə giriş-çıxışına qoyulan qadağa götürülüb. Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının üzvü olan təşkilatların cinayət işi dayandırılıb. Bunu koalisiyanın koordinatoru Əliməmməd Nuriyev qurum üzvlərinə yazdığı məlumatda bildirib. Onun sözlərinə görə, koalisiyanın üzvü olan İqtisadi Tədqiqatlar Mərkəzindən Qubad İbadoğu və Qalib Bayramovun, Azad İqtisadiyyata Yardım İB-in rəhbəri Zöhrab İsmayılın, Demokratik Təsisatlar və İnsan Hüquqları İB-dən Elçin Abdullayevin, “Free Person” İnsan Hüquqları Müdafiə Cəmiyyətindən Səbuhi Qafarovun və Qafqaz Media Araşdırmaları Mərkəzindən Anar Orucovun hesabları üzərindən həbs və vergi yoxlamaları dayandırılıb: “Qeyd edilən QHT-lərə qarşı açılan cinayət işləri də dayandırılıb. Daha əvvəllər isə Mirvari Qəhrəmanlı (Neftçilərin Hüquqlarının Müdafiəsi İB), Anar Orucov (Qafqaz Media Araşdırmalar Mərkəzi), Vüqar Bayramovla ( İqtisadi və Sosial İnkişaf Mərkəzi) bağlı cinayət işləri dayandırılmışdı”,- deyə Ə. Nuriyev bildirib.**

Azərbaycan sərhədlərində yoxlama problemi olan koalisiyanın üzvlərindən Qalib Bayramov, Zaur Əkbər, Məlahət Mürşüdlü, Səbuhi Qafarov, Oqtay Güləliyev, Anar Orucov, Əziz Orucov, Zöhrab İsmayıl, Elçin Abdullayev və İlham Hüseynli 18 mart tarixindən ölkəyə giriş-çıxışla bağlı heç bir problemlə üzləşməyəcəklər.

Adları çəkilən QHT rəhbərlərindən bir neçəsi fakta münasibətlərini bildiriblər. Qalib Toğrul musavat.com-a açıqlamasında qeyd edib ki, bu məsələdə bir qədər gözləmək daha məqsədəuyğundur: “Gözləyək ki, sular durulsun. Ortada real heç nə yoxdur. Gözləyirik ki, hesabımızla bağlı məsələ dəqiqləşsin. Ölkədən çıxmışam, daha məni yoxlamırlar, bu, götürülüb. Ancaq digər məsələlər hansı səviyyədə həll olunub, onu bilmirəm. Hazırda dəqiqləşdirmə gedir”.

Zöhrab İsmayıl isə sualları cavablandırmaq istəmədiyini bildirib.

**Elçin Abdullayev qeyd edib ki, bu xəbəri sosial şəbəkələrdən, mətbuatdan, Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiya Şurasının koordinatoru Əliməmməd Nuriyevin müsahibələrindən oxuyub:** “Belə bir qərarın olmasına şübhəm yoxdur. Yəqin hər hansi bir siyasi qərar var ki, Əliməmməd Nuriyev bu fikri səsləndirib. Onun fikirlərinin səmimiliyinə şübhə etmirəm. Bizim ölkədə siyasi qərar olmadan, hər hansi məsələnin hüquqi həlli mümkünsüzdür. Bildiyiniz kimi, rəhbərlik etdiyim təşkilat insan hüquqları sahəsində, xüsusilə QHT-lərə hüquqi yardımla məşğul olan təşkilatdır. Biz bütün qərarlarımızı və fəaliyyətimizi hüquqi sənədlərə əsasən qururuq. Bu baxımdan, problemin həll olunmasının rəsmi sənədlərdə əks olunmasını görmək istəyirik. Dünənə qədər bizim bank hesablarımızda həbslər və vergi cərimələri durur. Yəqin ki, növbəti həftələrdə biz bunun bir daha dəqiqləşdirilməsini aparacağıq. Digər tərəfdən, rəhbərlik etdiyim QHT-yə qarşı cinayət təqibinin və ya cinayət işinin olub-olmamasını müəyyənləşdirmək üçün Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə rəsmi müraciət ünvanlamışıq və bununla bağlı hər hansı rəsmi cavab almamışıq. Düzdür, təşkilatımıza məxsus olan sənədlər və digər texniki avadanlıqlar bir müddət sonra idarə tərəfindən bizə geri verilib. Digər tərəfdən, təşkilatımızın vergi cərimələri var. Bu cərimələrin olub-olmamasına dair Vergilər Nazirliyinə sorğu ilə müraciət edəcəyik. Rəsmi cavablardan sonra ictimayyətə açıq müraciət edəcəyik”.

**Onun fikrincə, ölkəyə qayıtdıqdan sonra təzyiqlərin davam etməsi onun üçün əhəmiyyətli deyil:** “Bildiyiniz kimi, biz hazırda Almaniyaya təhsil təqaüd proqrami çərçivəsində gəlmişik. Bu proqram uzunmüddətli proqramdır. Ən azından 2019-cu ilin sentyabrına qədər davam edəcək. Bu baxımdan, yaxın illərdə Azərbaycana qayıtmaq haqqında düşünmürəm. Doğrusu, təzyiqlərin davam etməsi mənim üçün artıq əhəmiyyətli deyil. Çünki hər zaman təzyiqlər mövcud olub. Əhəmiyyətli odur ki, artıq mövcud qanunvericilik və mövcud şəraitdə QHT-lərin əvvəlki kimi fəaliyyət göstərmək imkanları məhduddur. Ona görə yaxın perspektivdə QHT-lərin səmərəli və effektiv fəaliyyətinin olmasını gözləmək sadəlövhlük olardı. Bu gün güclü vətəndaş cəmiyyəti ən çox hökumətə lazımdır”.

❑ RÖYA

# “Burada donuz da yaşamaz, amma biz yaşayırıq...”

## Qəzalı vəziyyətdə olan bina sakinlərindən SOS siqnalı; Bakıda 96 ailənin məskunlaşdığı yataqxana hər an çökə bilər...

**Martın 28-də Bakının Xətai rayonu, Cavanşir küçəsi-10 ünvanında yerləşən yataqxanada uçqun baş verib. Musavat.com-un məlumatına görə, hadisə beşmərtəbəli binanın 3-cü və 4-cü mərtəbəsində olub. Bu səbəbdən binanın qəza baş verən hissəsində giriş və çıxış məhdudlaşdırılıb, ərazi xəbərdaredici lentlərlə mühasirəyə alınıb. Polislər gecə saatlarından etibarən növbəli şəkildə ərazini mühafizə edirlər.**

Xoşbəxtlikdən uçqun zamanı xəsarət alan olmayıb. Çünki hadisə saat 16:00 radələrində baş verib və həmin saatlarda mətbəxdə heç kim olmayıb. Sakinlərin sözlərinə görə, bina uzun illərdir qəzalı vəziyyətdədir. Lakin heç bir rəsmi qurum onlarla maraqlanmayıb: “6 ildir müraciət etmədiyimiz yer qalmayıb. Hamısı bizi yola verib, ya da ümumiyyətlə dinləməyib. Bu binada 96 ailə yaşayır. Onlardan, sadəcə, biri qaçqındır. Qalanları isə vaxtilə Hacı Zeynalabdin Tağıyev adına Toxuculuq Kombinatında işləmiş, orada ev növbəsinə dayanıb, sonda burada yaşayanlardır. Bina 1957-ci ildə tikilib. Tam yararsız vəziyyətdədir. Bu günə qədər kim bu binaya baxıbsa, eyni sözü deyib: ”Burada yaşamaq təhlükəlidir". Hətta illər öncə binanı alıb, yerində normal yaşayış binası çəkmək istəyən xarici vətəndaş var idi. Camaata da normal kompensasiya və ya ev veriləcəkdi. Amma yerli məmurlar onun başına elə oyun açdılar ki, fikrini dəyişdi. Həmin şəxs binaya baxmağa gələndə dediyi sözlər hələ də yadımdadır. Demişdi ki, burada donuz da yaşamaz. Amma biz yaşayırıq".

**Hadisə baş verən 4-cü mərtəbədə isə 10 ailə məskunlaşıb. Ailələr deyir ki, döşəməsi çökən mətbəxdən istifadə edərkən hər zaman ehtiyat ediblər:** “Çünki qəzalı vəziyyətdə idi. Hər dəfə mətbəxə daxil olanda çökəcəyini düşünürdük. Ümumiyyətlə, bina yararsızdır. Hər tərəfi uçulub-tökülür. Zirzəmi su içindədir. Bünövrələr çürüyüb. Burada yaşamaq hər an ölümü, uçqunun altında qalmağı gözə almaq deməkdir. Qonşu qadının oğlu Ağdamda qulluq edir. Onun hadisədən xəbəri olsa nə düşünər? O, Vətəni qoruyur, anası burada ölüm təhlükəsi yaşayır. Biz səhər saat 9-dan etibarən Abid Şərifovun yolunu gözləyirik. Amma nə gələn var, nə gedən”.





Nazirlər Kabineti Bakının Xətai rayonunda uçqun baş verən yataqxana binası ilə bağlı bu gün müvafiq qərar verəcək. Bunu Xətai Rayon İcra Hakimiyyətinin (İH) əməkdaşı Nizaməddin Əkbərov deyib. Lakin hazırda binadakı ailələr heç bir yerə köçürülməyib.

❑ Məhəmməd TÜRKMƏN
❑ Foto müəllifindir

### Siyasi fəalların azadlığa çıxması müxalifətin güclənməsinə təsir edəcəkmi...

**Arif Hacılı:** “Şübhəsiz ki, bir çox tanınmış siyasi məhbusların həbsdən buraxılması ölkə həyatında öz təsirini göstərəcək”



**Son 10 gündə 16 nəfər tanınmış siyasi fəalın həbsdən azad olunmasının demokratik düşərgədə canlanma yaradacağına dair ehtimallar var. Xüsusilə də iki başqan müavininin azad edilməsinin Müsavat Partiyasının fəaliyyətinin güclənməsinə təsir edəcəyi bildirilir. Bu barədə “Yeni Müsavat”a danışan Müsavat Partiyasının başqanı Arif Hacılı qeyd etdi ki, siyasi məhbusların azad olunması nəinki siyasi partiyaların, eyni zamanda Azərbaycan cəmiyyətinin, dövlətinin milli maraqlarına uyğundur: “Heç şübhəsiz ki, bir çox tanınmış siyasi məhbusların azadlığa çıxması həm ölkə həyatında, həm Azərbaycana olan beynəlxalq münasibətlər sisteminə öz təsirini göstərəcək. Siyasi məhbusların azadlığa çıxması yeni bir prosesdir. Əslində 21-ci əsrdə faktiki Avropa ölkəsi olan, dünyəvi dövlət olan Azərbaycanda siyasi məhbusların olması qeyri-adi bir hadisədir. Ona görə siyasi məhbusların hamısının yaxın vaxtlarda azad olunacağını gözləyirəm, azad olunmasını istəyirəm. Şübhəsiz ki, bütün siyasi məhbusların azad olunması həm demokratik düşərgənin, həm də bütövlükdə Azərbaycan cəmiyyətinin maraqlarına uyğun olardı”.**

Qeyd edək ki, Müsavat Partiyası Divanının martın 28-də keçirilən iclasına həbsdən yeni azad olunmuş başqan müavinləri Tofiq Yaqublu və Yadigar Sadıqov da qatılıb. Divanın bu toplantısı həbsdən yeni azad olunmuş Müsavat başqanının müavinləri Tofiq Yaqublu və Yadigar Sadıqovun iclasa qatılması və qurultaydan sonra qurumun ilk dəfə olaraq tam tərkibdə yığışması ilə əlamətdar olub.

Bu hadisə ilə bağlı Arif Hacılı bildirdi ki, Müsavat Partiyasının Divanı demokratik bir qurumdur. Divanda ölkədə və beynəlxalq aləmdə siyasi proseslər müzakirə olunur. Tofiq Yaqublu kimi, Yadigar Sadıqov kimi ölkə siyasətindən, beynəlxalq siyasətdən xəbərdar olan tanınmış siyasi xadimlərin Divandakı siyasi müzakirələrə qatılması öz müsbət nəticələrini verəcək.

Onu da bildirək ki, Divanın iclasında martın 31-də saat 11:00-da Bakıda ermənilər tərəfindən törədilmiş soyqırımın ildönümü ilə əlaqədar Şəhidlər Xiyabanının ziyarət edilməsi qərara alınıb.

Eyni zamanda Müsavat Partiyası Məclisinin növbəti sessiyasının gündəlik layihəsi hazırlanıb. Sessiyanın aprelin 2-də saat 11:00-da keçirilməsi barədə qərar qəbul edilib.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 66 (6387) 30 mart 2016

**Azərbaycanda son parlament seçkilərindən 4 ay keçsə də, Mərkəzi Seçki Komissiyasının (MSK) yeni tərkibinin formalaşdırılması yubanır. Qeyd edək ki, Seçki Məcəlləsinə əsasən, MSK-nın və aşağı seçki komissiyalarının səlahiyyət müddəti 5 ildir. MSK 18 üzvdən ibarətdir. MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan deputatları, 6 üzvü isə Milli Məclisdə azlıq təşkil edən partiyaları təmsil edir.**

# MSK müəmması: Məzahir Pənahovun yerinə o gəlir...

Son parlament seçkilərindən 4 ay keçsə də, Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin formalaşdırılması yubanır; "2015-ci il parlament seçkilərindən sonra özüm gedəcəm" deyən 16 illik sədri yola salmaq üçün səbəblər də var...

YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov hələ fevralda MSK-nın mart ayına qədər formalaşacağını demişdi. S.Novruzov YAP-da bununla bağlı hazırlıq işlərinin getdiyini və partiyanın İdarə Heyətinin qərarından sonra MSK üzvlüyünə namizədlərin müəyyənləşəcəyini bildirmişdi. MSK-nın hazırkı tərkibinin səlahiyyət müddəti xeyli vaxtdır bitib, amma nə yeni tərkib formalaşıb, nə MSK sədri var... Üstəlik, parlamentdə yeni mandat əldə edən Azərbaycan Sosial Demokrat, Vəhdət və Azərbaycan Demokratik Maarifçilik partiyalarının MSK-da təmsil olunması yubadılır, öz nümayəndələrini seçki komissiyalarına göndərmək hüququndan yararlana bilmirlər.

Yeri gəlmişkən, Rusiya Mərkəzi Seçki Komissiyasının sədri Vladimir Çurov vəzifəsindən gedib, martın 28-də isə onun yerinə sabiq ombudsman Ella Panfilova seçilib. 2007-ci ildən MSK-ya rəhbərlik edən Çurovun istefasını Rusiya müxalifəti də tələb edirdi. Rusiya siyasi elitasının əsas regionu - leninqradlı Çurovun gözlənilmədən vəzifəsindən yola salınması və reputasiyası kifayət qədər şəffaf olan Panfilovanın MSK-ya gətirilməsi Rusiya mediasında ciddi müzakirə olunmaqdadır. Əsas iddia budur ki, Çurovun rəhbərliyi dövründə Rusiyada seçki qanunvericiliyi sahəsində geriləmə olub, keçirilən seçkilər beynəlxalq qınağa tuş gəlib, ölkənin ATƏT-in seçki institutları ilə münasibətləri pozulub. Siyasi idarəetmə baxımından Rusiya modelinə yaxın Azərbaycanda da eyni fikirləri Məzahir Pənahov haqda demək mümkündür. Azərbaycan hökuməti və Avropada seçkini müşahidə edən əsas beynəlxalq qurum arasında münasibətlər son parlament seçkiləri ərəfəsində gərginləşdi və nəticədə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu da daxil olmaqla, digər xarici təşkilatlar Azərbaycana müşahidəçi göndərməkdən imtina etdi. 2000-ci ildən MSK-ya rəhbərlik edən M.Pənahovun yola salınacağı ilə bağlı məlumatlar demək olar ki, qurum hər formalaşdıqda gündəmə gəlir. Bu illər ərzində onun rəhbərliyi ilə ölkədə


Məzahir Pənahov

üç prezident (2003-2008 və 2013), üç bələdiyyə (2004, 2009 və 2014), dörd parlament (2000, 2005, 2010 və 2015), iki dəfə (2002 və 2009) referendum keçirilib. Sirr deyil ki, həm ölkədə, həm də Qərbdə bu seçkilərin nəticələri hər zaman ciddi şübhə və etirazlar doğurub.

Məlumatlara görə, MSK-nın formalaşdırılmasının ləngiməsinin səbəbi M.Pənahovun vəzifəsindən azad ediləcəyi ilə bağlıdır. Hələ son seçkilər ərəfəsi belə xəbərlər də vardı ki, MSK sədri yaxın ətrafına "2015-ci il parlament seçkilərindən sonra özüm gedəcəm" deyib. "Hazırda onun yerinə gətirilməsi planlaşdırılan namizədlərlə bağlı müzakirələrin getdiyinə dair fikirlər var. Daha dəqiqi, hakimiyyət daxilindəki bütün tərəfləri razı sala biləcək namizəd axtarılır" deyə, azpolitika.info saytı yazır. Xəbərdə o da iddia edilir ki, ölkə rəhbərliyi səviyyəsində MSK-nın müstəqil qurum kimi fəaliyyətinə son qoyulması məsələsi də müzakirə olunur.

M.Pənahovun varisi haqda da ən müxtəlif məlumatlar var. Məsələn, bu posta ən real namizədlər sırasında ölkədə bütün qanunların hazırlanmasında əsas fiqurlardan olan Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin adı çəkilir. Bundan başqa, Prezident Administrasiyasında da bir neçə nəfərin bu posta namizədliyinin müzakirə edildiyi söylənilir.

Məlumatlarda o da bildirilir ki, MSK-nın müstəqil qurum kimi fəaliyyətinə son qoyularaq, Daxili İşlər Nazirliyini tabeçiliyinə verilməsi təklifi də var. Qeyd edək ki, təkcə Türkiyədə deyil, bir sıra Avropa ölkələrində də seçki DİN-in nəzarəti altında keçirilir. Bu təcrübədən Azərbaycanda istifadə olunması isə indilikdə real görünmür. Yeri gəlmişkən, 1992-ci ildə Mərkəzi Seçki Komissiyasının ilk sədri mərhum Cəfər Vəliyev 1979-1987-ci illərdə Azərbaycan SSR-in daxili işlər naziri işləmişdi...

❑ **"Yeni Müsavat"**

# Samir Şərifovun susmasının sirri

## Sülhəddin Əkbər: "İttihamlara reaksiya verməmək nə Samir Şərifovun, nə də Azərbaycan hökumətinin xeyrinə deyil"

**Eks sovet kəşfiyyatçısı, hazırda isə ABŞ-ın maliyyə analitiki olan Yuri Şvetsin Ukraynanın "Qordon" agentliyinə müsahibəsində maliyyə naziri Samir Şərifovu "üç qat agent" olmaqda ittiham etməsindən bir aya yaxın vaxt keçir. Bu müddətdə Maliyyə Nazirliyinin mətbuat katibinin bir neçə cümləlik ironik məzmunlu cavabından başqa hələ heç bir ciddi rəsmi reaksiya, təkzib olmayıb. Şvetsin məlum açıqlamasından dərhal sonra ABŞ-a səfərə gedən nazir Samir Şərifov Novruz bayramında Azərbaycana dönüb. Lakin indiyədək barəsində irəli sürülən ağır ittihamla bağlı heç bir fikir bildirməyib.**

Baxmayaraq ki, Şvetsin müsahibəsi yayılandan sonra ekspertlər bildirmişdi ki, iddialar əsassızdırsa, maliyyə naziri onu məhkəməyə verməklə bunu sübut etməyə cəhd edə bilər. Lakin hələ bu da baş verməyib.

Maraqlıdır ki, iqtidar mediası da məsələ barədə susur. Hakimiyyət nümayəndələrindən də hələ məsələyə münasibət bildirən olmayıb. Adətən hakimiyyətdə hansısa yüksək


Samir Şərifov

post tutan məmur haqqında gündəmi zəbt edəcək səviyyədə neqativ xarakterli iddialar səsləndiriləndə YAP-çı deputatlar və iqtidar KİV-ləri deyilənlərin əsassız olduğunu sübut etmək üçün ard-arda açıqlamalar, bəyanatlar verirlər. Qəribədir ki, Samir Şərifovla bağlı məsələdə bu hala rast gəlinmədi.

Susqunluğun səbəbinin hansı anlamı daşıdığı barədə sualımıza cavabında milli təhlükəsizlik nazirinin sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirdi ki, əsas məsələ odur bu cür ciddi ittihamı sürən şəxs ciddi dəlillər, sübutlar ortaya qoymalıdır. İrəli sürülən ittihamlarda hər hansı dəlil-sübut görünmədi. Bənzər ittihamları o formada istənilən şəxsə qarşı irəli sürmək mümkündür. İttihamda konkretlik yoxdur: "Konkret nə vaxt, harada, hansı xüsusi xidmət orqanı tərəfindən, hansı motivlərlə işə cəlb olunduğu, kod adı, iş nömrəsi və ya bu kimi məsələlər yoxdur. Yəni bu kimi sübutlar olmayınca, şəxsi işi, iş dosyeləri, nömrələri ortada olmadan hər hansı bir şəxsə konkret ittiham irəli sürmək mümkün deyil. Samir Şərifova qarşı irəli sürülən ittiham mənə elə gəlir psixoloji savaşın tərkib hissəsidir. Bunu artıq xüsusi xidmət orqanları araşdırmalıdırlar ki, bunun arxasında kim durur, hansısa dövlətmi, yoxsa hansısa bir qrup dayanır, yoxsa bu, hakimiyyət içindənmi qaynaqlanır. Bu məsələləri araşdırmadan hər hansı bir fikir irəli sürmək, təxminlərlə danışmaq olmaz".

**S.Əkbər sonra qeyd etdi ki, bütün şübhələr aradan qalxsın deyə, ən düzgün yol ilk növbədə həmin ittihamı irəli sürən şəxsin məhkəməyə verilməsidir. Hakimiyyətin bu addımı atmaqdan yayınması ciddi şübhələr yaradır:** "Burada susmaq nə Samir Şərifovun, nə də Azərbaycan hökumətinin xeyrinə deyil. Qarşı tərəfin xeyrinədir. Susmaq bir növ irəli sürülmüş ittihamla razılaşmaq deməkdir. Onu da nəzərə almaq lazımdır ki, ittihamı irəli sürən ciddi bir şəxsdir və o, bu ittihamları ABŞ kimi qanunun aliliyinin hökm sürdüyü, müstəqil məhkəmə sisteminin olduğu bir ölkədə irəli sürürsə, deməli, əlində ciddi faktlar var. Onun belə ittihamlar irəli sürməsi, Samir Şərifovun və hökumətin susması daha çox şübhələri bu istiqamətə yönəldir. Susqunluq davam etdikcə, şübhələr getdikcə artacaq".

Qeyd edək ki, Yuri Şvets müsahibəsində özünün yeni kitabı haqda danışarkən, Azərbaycanın yüksək siyasi elitasında təmsil olunan və hazırda Kremlə "işləyən" "üçqat agentdən" də bəhs edib və həmin məmurun Azərbaycanın maliyyə naziri Samir Şərifov olduğunu deyib. Şvetsin iddiasına görə, agentura məlumatlarında bildirilir ki, Samir Şərifov Rusiya, Türkiyə və Amerika xüsusi xidmət orqanlarına işləyib, indi yenidən Kreml tərəfindən ələ alınıb.

❑ **Etibar SEYİDAĞA**

# REAL yenidən təşkilatlanır?

## İlqar Məmmədovdan REAL Partiyasında təyinatlar olub, qurultay gözləntisi var...

**Martın 25-də Respublikaçı Alternativ (REAL) Partiyasının Təşkilat Komitəsinin iclası keçirilib. İclasda iş planı və Təşkilat Komitəsinin sədri, hazırda həbsdə olan İlqar Məmmədovun təyinatları müzakirəyə çıxarılaraq təsdiqlənib. İlqar Məmmədov ictimai-siyasi məsələlər üzrə katib Azər Qasımlını, təşkilati məsələlər üzrə katib Natiq Cəfərlini, konseptual məsələlər üzrə katib Erkin Qədirlini, hüquqi məsələlər üzrə katib Xalid Bağırovu təyin edib.**

REAL-çı Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, REAL sədrinin təyinatları ilkdir: "REAL-da ilk təyinatlardır, yəni ənənəvi addım deyil.

Əslində bu, partiyanın qurultayının təşkil olunması ilə əlaqədardır. Yəni bu təyinatlar fəaliyyətini qurultaya qədər davam etdirəcək. Qurultaydan sonra format olaraq yenilənəcək, yeni formata keçiləcək".

Onun sözlərinə görə, qurultayla bağlı işlərin sürətlənməsini, sürətlə getməsini nəzərə alaraq bir neçə nəfər müxtəlif vəzifələrə təyin ediliblər: "Həmin görəvlərə təyinat olub ki, iş daha asan olsun. Məqsəd qurultayımızla bağlı təşkilati məsələlərin tezliklə həll olunmasıdır. Bu, ümumi REAL-ın idarə olunması ilə bağlı deyil, qurultayla bağlıdır. Təyin edilən şəxslər qurultayın keçirilməsi ilə məşğul olacaq".

**N.Cəfərli qeyd edib ki, qurultayın vaxtı görülən işlərin sürətindən asılı olacaq:** "Fikrimiz bu il qurultay keçirməkdir. İlqar bəy həbsdən çıxmasa da, qurultayı keçirməyi düşünürük. Biz arzulayırıq ki, o, tezliklə azadlığa çıxsın. Düşünürük ki, tezliklə aramızda olacaq və fəaliyyətini davam etdirəcək. Yəni bu daha da işlərin sürətlənməsinə səbəb olacaq. Amma təbii ki, ikinci variant, yəni İlqar bəyin bir müddət həbsdə qalması ehtimalı yüksəkdir. Buna baxmayaraq, işlər getməlidir, plan üzrə getməlidir. İlqar bəyə mütəmadi olaraq vəkillər vasitəsilə işin gedişatı ilə bağlı məlumat verilir. İlqar bəy çıxmasa da, bu il qurultayımızı keçirməyi düşünürük. Belə olarsa, o, bəlkə də dünya tarixində həbsdə olarkən sədr seçilən ilk partiya rəhbəri olacaq. Hazırda REAL-da onun sədr kimi alternativi yoxdur".

❑ **RÖYA**

**Azərbaycan hakimiyyətinin son günlərdə siyasi məhbuslarla bağlı yumşaldığı müşahidə olunur. Novruz bayramında verilən əfvlə çox sayda siyasi fəal azad edildi. Martın 28-də hüquq müdafiəçisi İntiqam Əliyevin həbs cəzası şərti cəza ilə əvəzləndi.**

# Hakimiyyət "siyasi məhbus yükü"nü üzərindən atır...

Ölkə iqtidarının "siyasi məhbus yükü"nü üzərindən atmaq üçün belə önəmli qərarlar verdiyi deyilir. Hakimiyyətin bir növ Qərbdən gələn təzyiqlərə qarşı indiyə qədər göstərdiyi dirəniş siyasətindən artıq imtina etdiyi, Qərblə münasibətləri yaxşılaşdırmaq üçün siyasətini dəyişdiyi bildirilir. Bundan əlavə, bu məsələnin fonunda başqa iddialar da var. Əsas iddialardan biri Azərbaycan prezidentinin bu ayın sonu, gələn ayın əvvəllərində Vaşinqtonda keçiriləcək nüvə sammiti çərçivəsində ABŞ-a gözlənilən səfəri ilə bağlıdır. Ölkə başçısının Amerikaya siyasi məhbuslarsız getmək üçün hakimiyyətin Qərbin diqqətində olan siyasilərlə bağlı önəmli qərarlar verdiyi bildirilir. Doğrudur, hazırda həbsxanalarda yenə də bəzi siyasilər var. Amma görünən odur ki, ölkə iqtidarı əsas siyasi fiqurları azad edib.

Siyasi məhbusların azad edilməsi ilə bağlı daha bir versiya var. Bu, ölkəmizdə son zamanlarda rolları kəskin dərəcədə artan radikal dini cərəyanlarla bağlıdır. Hökumətin radikal qruplaşmaların rolunun artmasından ehtiyatlandığı və bunun üçün vətəndaş cəmiyyətinin rolunun artmasında maraqlı olduğu qeyd olunur...



**İqbal Ağazadə:** "Yenə də siyasi ittihamla tutulanlar ola bilər"



**Mehman Əliyev:** "Ölkə iqtidarı Qərbin qarşısında geri çəkilmir, sadəcə, reallığı dərk edir"



**Aydın Mirzəzadə:** "Onlara qarşı sürülən ittihamlar qüvvəsini itirməyib"

**Ümid Partiyasının sədri İqbal Ağazadə Azərbaycanın Avropa Şurasına üzvlüyündən indiyə qədər çoxsaylı siyasi məhbusların azad olunduğunu qeyd etdi:** "Biz Avropa Şurasına daxil olanda 1560-a yaxın siyasi məhbus var idi. Sonradan onların böyük bir qismi azad olundu. 2003-cü ildə minə yaxın siyasi məhbus var idi. Onlardan da azad olunanlar oldu. Yeni mərhələ-mərhələ siyasilərin azad olunması prosesi gedib. Təəssüf doğuran odur ki, siyasi kateqoriyaya daxil olan məhbuslar var və məhkəmələr azad deyil. Siyasi institutlar da fəaliyyətlərini siyasi məhbuslar üzərində qururlar. Sanki siyasi proses ölkəmizdə bitib, həbsdə qalan siyasilər də azad olunsa, hər şey yolunda gedəcək. Bu, əsas məsələ olmalı deyil. Əsas məsələ fundamental azadlıqların olmasıdır. Bunun üçün çalışmalıyıq. O zaman siyasi məhbus olmayacaq. Əgər bu gün siyasi məhbus varsa, sifarişli məhkəmə mövcuddursa, bir müddətdən sonra yenə də siyasi məhbuslar ola bilər. Heç bir siyasinin azad olunması demokratik prosesləri sürətləndirə bilməz. İndiyə qədər 3 minə yaxın siyasi məhbus buraxılıb. Buna qalsaydı, çoxdan demokratik ölkə olmalıydıq. Hazırda həbsdə olan siyasilərin Allah qapısını açsın. Avropa və dünya Azərbaycan tipli məsələlərə diqqət ayırmaq gücündə deyil. Çünki böyük tələtümlər içərisindədir. Bu baxımdan prezidentin ABŞ səfərindən sonra bu proseslərin səngiyəcəyi qənaətindəyəm. Hazırda dünyada terrorla mübarizə ön plana keçib. Hər şey ölkələr daxilində həll olunur. Ölkə daxilində cərəyan edən böhran aradan qalxmayınca, Qərbin nə deməsinin anlamı olmayacaq".

**Ümid sədri radikal dini cərəyanların rolunun artması ilə bağlı fikirlərə də toxundu:** "Bunu belə düşünmürəm. Sadəcə, limit bitirdi. Onları azad etmək zamanı idi. Hansı siyasi məhbus 15-20 aydan artıq qalıb? Yalnız Eynulla Fətullayev bu müddətdən artıq həbsdə qalıb. Radikal dini cərəyanların rolunun artmasına gəlincə, hesab edirəm ki, regionda vəziyyət dəyişdi. Siyasət fərqli istiqamətə yönəldi. Ona görə də sürəsi dolmuşlar azad olundu. Azərbaycan müxalifəti və QHT-lər içərisində radikal qruplara qarşı mübarizə aparan az qüvvə var. Böyük əksəriyyət susmağa üstünlük verir. Yaxud insan haqları kontekstindən onların da hüquqlarını müdafiə edirlər".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, ölkə iqtidarı Qərbin qarşısında geri çəkilmir, sadəcə, reallığı dərk edir:** "Yaranan iqtisadi böhran hakimiyyəti bu addımları atmağa vadar edir. İqtidar da vəziyyətlə hesablaşır. Bu vəziyyətdən çıxmaq üçün ABŞ və Avropa Birliyinin dəstəyinə güvənmək gərəkir. Başqa halda böhran daha da dərinləşəcək. Qərb hakimiyyətdən heç nə istəmirdi. Sadəcə, azad cəmiyyətin olmasına çalışırdı. Bu cəmiyyət olmadan normal iqtisadiyyat qurmaq mümkün deyil. Düşünürəm ki, bu proses davam edəcək. Çünki böhran hələ də davam edir. Uzunmüddətli böhran olacağı qaçılmazdır. Bu baxımdan insan haqları ilə bağlı siyasətin də uzunmüddətli olacağı qənaətindəyəm. Bu prosesləri müxtəlif istiqamətlərə yönəltmək doğru deyil. Doğrudur, Qərblə danışıqlarda siyasilərin azad olunması məsələsi var idi. Hətta konkret şəxslər də ola bilərdi. Amma bunu islamçılara bağlamaq doğru deyil. Siyasi məhbusların azad edilməsi məcburiyyət idi. Həbslər hakimiyyətin ölkəmizdə "məxməri inqilab"ın qarşısını almaq üçün həyata keçirilirdi. Bunu hakimiyyət açıq şəkildə bəyan edirdi. Yaranan vəziyyəti hakimiyyət özü yaratdı. Demokratik islahatlar gedəcək, bu, qaçılmazdır".

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə bir daha hakimiyyətin mövqeyini bəyan edərək, Azərbaycanda siyasi məhbusların olmadığını söylədi:** "Ölkəmizdə heç kəs siyasi əqidəsinə görə məhkum olunmayıb. Biz demokratik dövlətik. Qanunun aliliyi əsas götürülür. Sadəcə, mətbuatın diqqətini çəkən bir neçə nəfər məhbus var idi. Buna səbəb də bu şəxslərin adlarının bəzi siyasi dairələr tərəfindən hallandırılması idi. Azərbaycan hakimiyyətinin yalnız öz vətəndaşları qarşısında öhdəlikləri var. Xarici ölkələr, dairələr qarşısında heç bir hesabatı yoxdur. Atılan bütün addımlar dövlətçiliyin möhkəmləndirilməsinə yönəlir. Məhbuslarla bağlı kimisə fərqləndirməyə ehtiyac yoxdur. Cəzaları şərti cəza ilə əvəz olunanlar barədə düşünmək lazımdır ki, onlar cinayət məsuliyyətindən tam azad olunmayıblar, yəni bəraət almayıblar. Onlara qarşı sürülən ittihamlar qüvvəsini itirməyib. Sadəcə, cəza növü dəyişdirilib, güzəşt edilməyib. Hər kəs dövlətimizə hörmətlə yanaşmağa məcburdur. Dindar şəxslərə gəlincə, deyə bilərəm ki, onlar əqidələrinə görə yox, qanunları pozduqları üçün həbs edilirlər. Dövlət üçün təhlükə yaratmayan şəxslərin cəzalarının yüngülləşdirilməsi daim dövlətimizin əsas siyasətlərindən biri olub".

❑ **Cavanşir ABBASLI**

# "Bakıda Novruz şənliyini PKK yox, biz keçirmişik"

## Tahir Süleyman: "Kimlərinsə iki il əvvəl keçirilmiş bayram tədbirindən videonu yenidən sayta qoyması və bunu PKK ilə bağlaması etik deyil"

**Bəzi saytlarda və sosial şəbəkələrdə "Bakıda PKK Novruz bayramı keçirdi" başlığı ilə xəbərlər yayılıb. Bu başlıqlarla verilən xəbərləri isə Novruz şənliyindən videogörüntü müşayiət edib. Azərbaycan Kürdləri İctimai Birliyinin rəhbəri, Azərbaycanda kürd dilində çap edilən "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman "Yeni Müsavat"a bu barədə açıqlama verərək bildirib ki, yayılan video əslində 2014-cü ildə Azərbaycan Kürdləri İctimai Birliyinin təşkil etdiyi Novruz bayramı şənliyidir.**



2016-cı ildə belə bir Novruz şənliyi keçirilməyib: "Bizim 2014-cü ildə təşkil etdiyimiz Novruz bayramı şənliyi barədə xəbərlər, videomaterial o zaman ANS telekanalında efirə verilib. "Yeni Müsavat" qəzetində və digər bir neçə media orqanında dərc olunub. Biz bayram şənliyi keçirəndə gizli keçirmirik. 2014-cü ildə keçirdiyimiz və bayram şənliyinə Azərbaycanın Mədəniyyət Nazirliyi və digər rəsmi strukturlarını da dəvət etmişdik. Eyni zamanda Azərbaycanda yaşayan digər millətlərin təmsilçilərini də bayram şənliyinə çağırmışdıq. İndi kimlərinsə iki il əvvəl keçirilmiş bayram şənliyindən olan videonu yenidən sayta qoyması və üstəlik də "PKK Bakıda bayram şənliyi keçirdi" başlığı ilə təqdim etməsi, hörmətli general-polkovnik Bəylər Əyyubovun da adının bayram şənliyi ilə əlaqələndirilməsi nə jurnalistika prinsiplərinə, nə də etikaya uyğundur. Hazırda mənim başım yenicə dünyasını dəyişmiş əmim oğlunun yas mərasiminə qatılıb. Bir qədər sonra mən həmin saytların rəhbərliyinin kim olduğunu araşdırıb onlara belə təxribatlarına son qoymaları ilə bağlı xəbərdarlıq edəcəyəm. Videosu yayılan 2014-cü ildə keçirdiyimiz Novruz bayramı şənliyini PKK yox, Azərbaycan Kürdləri İctimai Birliyi təşkil edib. Yüksək səviyyədə keçirilmiş və hər kəsə açıq olmuş bayram törəni haqda ictimaiyyətə məlumat verilmişdi. İndi kimlərsə ara qarışdırmaq istəyinə düşübsə, biz onları böhtanlarına görə məhkəməyə verə bilərik. Burada heç bir problem yoxdur. Bizim heç bir gözükölgəliliyimiz yoxdur ki, çəkinək".

❑ **Etibar SEYİDAĞA**

# İqtidar-müxalifət dialoqu məsələsi yenidən gündəmə gəldi

## Siyasi məhbusların azad olunması baryerin aradan qalxması sayıla bilərmi?



**Hakimiyyət təmsilçisi ilə siyasi partiyaların 2015-ci ilin əvvəlində başlanan, bir müddət sonra dayanan görüşlərinin siyasi məhbusların azad olunması ilə əlaqədar olaraq yenidən keçiriləcəyi barədə ehtimallar irəli sürülməkdədir. Məlumatlara görə, siyasi məhbusların əksəriyyətinin azad olunması hakimiyyət-müxalifət dialoqunun davam etdirilməsində baryerlərdən biri sayılan problemin xeyli dərəcədə aradan qalxması deməkdir.**

Ötən il keçirilən görüşlərdə iştirak edən AXP sədri Pənah Hüseyn hesab edir ki, siyasi məhbusların azad olunmasını iqtidar-müxalifət dialoqu deyilən prosesə bağlamağa heç bir əsas yoxdur. Kimlərsə düşünürsə ki, bu addım iqtidarın müxalifətlə dialoqa hazır olmasının, şərait yaratmasının əlamətidir, yanılır: "Hazırda iqtidar müxalifətlə dialoqa hazır görünmür, bu məsələ hazırda aktual deyil. Hakimiyyət özü belə bir problem yaratmışdı və həmin vətəndaşları haqsız olaraq siyasi məqsədlərlə həbs eləmişdi. İndi də onların bir hissəsini buraxmağa gedildi. Prinsip etibarilə əlbəttə ki, istənilən halda siyasi məhbusların azadlığa çıxması faktı təqdir edilməlidir. Amma əsas məsələ belə bir situasiyanı yaradan siyasi sistemin islahatlar yolu ilə dəyişdirilməsindən gedir. Çünki əks təqdirdə, biz zaman-zaman belə halları müşahidə edirik ki, bir qrup siyasi məhbus azad olunur, bir az keçdikdən sonra isə yeniləri yaranır. Ona görə də bu vəziyyətin birdəfəlik aradan qaldırılması üçün ölkədə ciddi demokratik islahatlara və demokratik dəyişikliklərə ehtiyac var".

❑ **E.SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**ATƏT-in Minsk Qrupu həmsədrləri Vaşinqtonda keçiriləcək IV Nüvə Təhlükəsizliyi Sammiti çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü planlaşdırmır. Bu barədə "Report"a ABŞ-dan olan həmsədr Ceyms Uorlik bildirib.**






# "Prezidentlərin Vaşinqton görüşü olacaq" xəbərinə işğalçının təxribat-diversiya "cavabı"

## Prezidentlərin ABŞ-da bir araya gələcəkləri barədə məlumat yayan ermənilər cəbhədə niyə fəallaşdılar? Lavrovun Bakı səfəri ərəfəsində "7 rayon söhbəti" yenidən dövriyyəyə buraxılıb; politoloqların şərhi

Xatırladaq ki, az öncə Ermənistan KİV-i diplomatik mənbələrə istinadla vasitəçilərin Vaşinqtonda Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etməyə çalışdıqlarını bildirmişdi. Lakin sonradan məlum oldu ki, sammit çərçivəsində prezidentlərin görüşü nəzərdə tutulmur.

Düzdür, xeyli müddətdir ki, Azərbaycan və Ermənistan prezidentlərini bir araya gətirmək həmsədrlərə müyəssər olmur. Bunun əsas səbəbi həmsədrlərin açıq şəkildə işğalçının tərəfini tutmasıdır. Sonuncu belə hadisə AŞ PA-nın qış sessiyasında olmuşdu. Belə ki, Ermənistanın işğalçılığını təsdiqləyən qətnamənin qəbul olunmaması üçün həmsədrlər bütün imkanlarından istifadə edib buna nail oldular. Bundan sonra isə rəsmi Bakı həmsədrlərin qərəzli və ədalətsiz mövqeyinə sərt etiraz bildirərək onlardan izahat tələb etdi. Bu günədək də Bakını qane edəcək izahat verilmədiyi üçün həmsədrlərin təşəbbüslərinə də müsbət reaksiya verilmir və etimad göstərilmir.

Digər tərəfdən, Novruz bayramı günlərində atəşkəs rejiminin qorunması barədə çağırışlara Ermənistan tərəfinin yenə də saymazsız münasibət sərgiləməsi növbəti görüşü mənasız edir. Ötən günlərdə erməni tərəfinin diversiya-təxribat hücumlarını dəf edərkən Azərbaycanın 1 zabiti və 1 əsgəri şəhid oldu. Minsk Qrupu Ermənistanın bu hərəkətinə adekvat münasibət bildirməkdənsə, yenə də mənasız görüşlər seriyasına daha birini əlavə etmək istəyirmiş. Lakin amerikalı həmsədrin də etiraf etdiyi kimi, bu görüş baş tutmayacaq. Bununla belə, bəzi müşahidəçilər sammitin gedişində prezidentləri görüşdürmək üçün hansısa təşəbbüslərin ola biləcəyini də istisna etmir.

Amerikada Əliyev-Sərkisyan görüşünün olacağı ilə bağlı xəbərlərin yayılmasından az sonra cəbhədə gərginliyin artması, şiddətli döyüşlərin getməsi də təsadüfə bənzəmir. Ötən il BMT-nin Baş Assambleyasının sessiyası çərçivəsində iki prezidentin görüşünün olacağı ilə bağlı xəbər yayılanda da Ermənistanın təxribat-diversiya əməliyyatları artmışdı. O zaman belə ehtimallar səsləndi ki, işğalçı ölkəni himayə edən qüvvələr, xüsusilə də Rusiya sülh danışıqlarının başqa bir tərəfin əlinə keçməsinə imkan verməmək üçün bu kimi görüşləri əngəlləməyə çalışır. Faktiki olaraq eyni situasiya yaranıb və Vaşinqton görüşü alınmayacaqsa, burada kənar qüvvənin rolunun olması şübhəsizdir.

**Politoliq Arzu Nağıyev də baş verənləri təsadüf saymır:** "Təbii ki, bu, regiondakı nüfuz davasının məntiqi nəticəsidir. Qərblə Azərbaycanın istənilən yaxınlaşması müəyyən qüvvələri, o cümlədən Ermənistanın havadarlarını qıcıqlandırır. Azərbaycana da ən təsir edə biləcək faktor məhz Dağlıq Qarabağ münaqişəsidir və buna görə də ermənilər vasitəsilə onlar bu təsiri göstərir. Statistika da bunu göstərir ki, atəşkəs ən çox məhz bu vaxtlar baş verir. Qeyd edildiyi kimi, ABŞ administrasiyası öz gedişi ilə bağlı münaqişələrdə müəyyən müsbət addımlar atmağa çalışır, Rusiya isə bunu öz tərəfindən etməyə çalışır və ya göründü yaradır".

Qeyd edək ki, iki həftə öncə rəsmi Moskva Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində yaxasını kənara çəkən mövqedən çıxış etmiş, bu məsələni Bakı və İrəvanın həll etməli olduğunu bəyanlamışdı. Ancaq görünür, ABŞ-ın hansısa cəhdlər göstərə biləcəyi Rusiyanı öz fikrindən daşındırıb və hərəkətə keçirib. Üstəlik, belə bir ərəfədə Rusiya xarici işlər naziri S.Lavrovun Bakıya gələcəyi barədə xəbərlər yayılıb. Məlumata görə, rusiyalı nazir bölgəyə səfərində Dağlıq Qarabağ ətrafındakı 7 rayonun Azərbaycana qaytarılması təşəbbüsü ilə çıxış edəcək. Bir zəruri qeydimizi də edək ki, ötən il BMT sessiyası çərçivəsində prezidentlərin görüşünün olacağı xəbərləri dövriyyəyə buraxılandan sonra cəbhədə gərginlik yarandı və ardınca Lavrov Bakı və İrəvana səfər etdi. O zaman da "7 rayon müzakirələrinin aparıldığı" barədə şayiələr hər iki ölkədə geniş yayılmışdı. A.Nağıyev də deyir ki, Lavrovun gəlişi ərəfəsində belə şayiələr birinci hal deyil: "Deyilənlərin nə dərəcədə reallığı əks etdirdiyini zaman göstərəcək".

**Politoloq "Yeni Müsavat"a bildirdi ki, Vaşinqtonda başlayacaq Nüvə Təhlükəsizliyi Sammitində Ermənistanın rəhbəri Serj Sərkisyanın iştirakında əsas məqsəd bölgəyə real təhlükə yaradan "Metsamor" Atom Elektrik Stansiyası ilə bağlı ola bilər:** "Yəqin ki, ABŞ rəsmiləri Azərbaycan prezidenti İlham Əliyevin Serj Sərkisyanla görüşünün baş tutmasında maraqlıdırlar. Bu, həm də regional münaqişələrin həllində ABŞ-ın marağından, regionda planlaşdırılan meqalayihələrin həyata keçirilməsində maraqdan və ən başlıcası, nüfuz məsələsindən doğur. Mühüm səbəb isə bu il ABŞ-da prezident seçkiləri keçirilmədi və Obama administrasiyasının rəhbərlikdə müddətinin başa çatmasıdır. Yeni burada söhbət Obama və onun komandasının özündən sonra gələcək komandaya miras kimi qoyub getdiyi və həllini sona çadıra bilmədiyi münaqişə ocaqlarından -Türkiyə, Suriya, Ukrayna, Gürcüstan və bununla yanaşı, Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm addımların atılmamasından gedir. Dövlət katibi Kerrinin də Rusiya səfəri məhz bununla bağlı idi. Düşünürəm ki, keçirilməsi nəzərdə tutulan görüşün əsas məqsədi münaqişənin həllində ABŞ-ın öz maraqlarının olmasıdır. Təbii ki, Azərbaycan prezidentinin də tək Sərkisyan deyil, bir sıra aparıcı dövlətlərin başçıları ilə görüşləri ola bilər və bu vacib bir məsələdir. Məlumdur ki, dövlət başçımız da bütün görüşlərdə olduğu kimi Dağlıq Qarabağ münaqişəsinin həllini daima ilk plana çəkib".

***

Məhz belə bir ərəfədə Azərbaycan, Rusiya və İran xarici işlər nazirlərinin üçtərəfli görüşünün Bakıda keçirilməsi barədə razılaşmanın əldə olunması da Tehran və Moskvanın bölgəyə diqqətindən irəli gəlir. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyevin "Yeni Müsavat"a verdiyi məlumata görə, hazırda diplomatik kanallar vasitəsilə görüşün tarixi müəyyənləşdirilir. Nazirlik sözçüsü bildirib ki, görüş əsnasında ikitərəfli və üçtərəfli əməkdaşlıq layihələri, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı və digər qarşılıqlı faydalı əməkdaşlıq məsələləri müzakirə ediləcək.

XİN rəsmisi Rusiya XİN başçısı S.Lavrovun Azərbaycanda 7 rayonun azad olunması barədə müzakirələr aparacağı barədə məlumatları da şərh etdi. Bildirdi ki, Dağlıq Qarabağın ətrafındakı rayonların azad olunması məsələsi bütün danışıqların müzakirə mövzusudur. H.Hacıyev xatırlatdı ki, mərhələli həll planında ilkin olaraq ətraf rayonların işğalçılardan təmizlənməsi bəndi yer alıb və bu, ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə aparılan danışıqların əsas mövzusudur.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahnoğlu üç qonşu dövlətin XİN başçılarının bir araya gəlməsini belə şərh etdi:** "Rəsmi Bakı Türkiyə ilə strateji müttəfiqliyi dərinləşdirməsinə rəğmən, İran və Rusiya ilə də münasibətləri inkişaf etdirmək istəyir. Bu normaldır. Çünki Azərbaycana hər iki istiqamətdən təhlükə var. Bu təhlükənin neytrallaşdırılmasının yolu isə Tehran və Moskva ilə harda mümkündürsə, həmin istiqamətlərdə əməkdaşlığın inkişafından keçir. Məsələn, Azərbaycan Rusiya ilə İran arasında tranzit yolları genişləndirilməsinə çalışır. Bu, Tehranla Moskvanın da maraqlarına uyğundur. Və ya rəsmi Bakı İran üzərindən sanksiyaların götürülməsindən sonra cənub qonşumuzla ortaq istisadi və ticarət layihələrinin reallaşdırılmasını aktuallaşdırıb. Bütün bu gəlişmələrin yekunu kimi bölgədə Rusiya-Azərbaycan-İran yeni formatı yaranır. Bu format əsasında 3 dövlətin xarici işlər nazirləri yaxın günlərdə ilk dəfə Bakıda toplaşacaqlar. Bu formatın ərsəyə gəlməsində ilk növbədə rəsmi Bakı maraqlıdır. Elə məhz buna görə də ilk görüş Azərbaycan paytaxtında həyata keçiriləcək. Ancaq bu o demək deyil ki, Azərbaycan, Rusiya və İran xarici işlər nazirləri gələcək görüşdə Dağlıq Qarabağ probleminin həlli yollarını geniş müzakirə edəcəklər. Nə Tehran, nə də Moskva Ermənistanın iştirakı olmadan Azərbaycan rəsmiləri ilə Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etməzlər. Çünki Azərbaycan-Rusiya-İran formatı bir araya gəlsə də, nə Moskva, nə də Tehran hələ ki Azərbaycanın xeyrinə Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı deyillər".

**E.Şahinoğluna görə, Moskva və Tehran bilirlər ki, Azərbaycan müstəqil siyasət yürüdür və nə Rusiyanın, nə də İranın Qərb və Türkiyə əleyhinə planlarında iştirak etməz:** "Ermənistan isə vassaldır və işğal altındakı torpaqları boşaltmamaq üçün Moskvanın əlində alət olmağa hazırdır. Buna baxmayaraq, Azərbaycan, Rusiya və İran xarici işlər nazirlərinin gələcək görüşündə Qarabağ mövzusunun xaricində digər mövzular geniş müzakirə olunacaq. Nazirlər beynəlxalq terrora qarşı birgə mübarizə ilə bağlı bəyanat verə bilərlər. Aydındır ki, Azərbaycan Rusiya və İran kimi Suriyadakı proseslərə qarışmayacaq, ancaq sözdə beynəlxalq terrorizmə qarşı mübarizədə istənilən formatı dəstəkləməyə hazırdır. Nazirlər 3 ölkəni birləşdirəcək nəqliyyat və dəmir yollarının da qısa zaman kəsiyində istifadəyə verilməsi zərurəti ilə bağlı bəyanat verəcəklər".

YENİ MÜSAVAT
N 66 (6387) 30 mart 2016



# Yiyəsiz şəhər

Zamin HACI
zaminhaci@gmail.com

**Hər dəfə Bakıya yüngülvari yağış damcısı düşəndə sosial şəbəkələr, media səhifələri, xəbər lentləri su basmış küçələrin fotoları, videoları ilə dolub-daşır. Bu, artıq bir qanunauyğunluqdur, dünənki yağışdan sonra da təkrarlandı. Başqa cür olsa, yağış üçün hansısa deşiklər nəzərdə tutulsa, su küçədə göllənməyib axıb getsə, narahat olarıq, elə bilərik yad bir şəhərdə yaşayırıq, Hacıbala əkə demişkən, "Bakımızı" itirərik.**

Burda haşiyə çıxaraq, mininci dəfə təkrar olaraq yazım: Bakı Avropa məkanında şəhər bələdiyyə şefi - mer seçməyən axırıncı, nadir paytaxt şəhəridir. Yalnız bizdə şəhərin başçısını camaat yox, prezident təyin edir, millət də saxta bir oyuncaq fiqura illərdir "mer" deyir. Deputatlara millət vəkili, şəhər icra hakimiyyəti başçısına mer deyən jurnalistlərə ar olsun, xalqı aldadanları Binəqədi yolundakı göldə boğulsun, ilahi, amin!

Qaldı "mer-icra başçısı" söhbətini niyə mininci dəfə təkrar yazırıq, bunun da səbəbi sadədir. Əgər yapistlər bu mənasız dirənişdən əl çəkmirsə, biz də gərək əl çəkməyək, təkrarlayaq, bir gün kimsə bezəcək *(böyük ehtimal birinci mən bezəcəyəm)*. Özü də böyük Bakı şəhər bələdiyyəsi qayırmaqdan yapistlər niyə bu qədər qorxurlar, anlaşılmazdır. Yoxsa kadr tapmırlar - baş nazir vəzifəsindəki kimi? Əks halda, Bakı merini seçki yolu ilə qoymaq bunlara niyə belə çətinlik törədir? Guya başqa seçkilər kimi onu da saxtalaşdırıb mer vəzifəsinə hansısa oyuncaq "Hacıbala nömrə 2" qoymaq çətindir? Məzahir müəllimə tapşırsan, qutudan elə Abutalıbovun özünü də min dəfə çıxardar.

Uzun sözün qısası, hazırda Bakının üzləşdiyi saysız kommunal, sosial, mədəni və başqa problemlərdən kimə şikayət etməyi millət tapa bilmir. (*İnternetdə bu mövzuda çox yaxşı bir səsyazısı var. AzadlıqRadiosunun müxbiri İslam Şıxəli Füzuli küçəsində evləri sökülən sakinlərin şikayəti ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə zəng vurur. "Mətbuat xidməti"ndən bir nəfər başqa şöbəyə calaşdırır, deyir onlar baxır. Müxbir həmin nömrəyə zəng vuranda isə... şikayətçilərdən biri cavab verir! Sən demə, yazıq qadın evinin sökülməsi ilə bağlı idarəyə o qədər gəlib-gedib ki, artıq doğmalaşıb, orda oturur, telefonlara cavab verir!)* Bu dərəbəyliyin səbəbi təkcə bələdiyyənin yoxluğundan qaynaqlanmır. Eyni zamanda Bakının idarəçiliyində çox biabırçı xaos var, kimin nəyə, hansı idarənin hansı sahəyə cavabdeh olduğu məlum deyil. Bu durumu da yapistlər özləri yaradıblar, illərdir yol təmirini, kommunal qurumları, sərnişin nəqliyyatını və sairəni o qədər əldən-ələ veriblər ki, indi ipin ucunu tapmaq mümkünsüz hala gəlib. Misal üçün, bir ara uşaq bağçaları Təhsil Nazirliyinə tabe idi, sonra Bakı ŞİH-ə verildi. Yol gah Nəqliyyat Nazirliyinin olur, gah bələdiyyənin, gah da heç kimin. Qaz bir ara müstəqil idi, indi deyəsən SOKAR-a tabedir. Avtobusda sərnişin daşımanı Ziya müəllimin oğluna məxsus "Transgeyt"dən alıblar, indi "Bakıbus" adlı idarə var, bu kimindir, onu da bilən yoxdur. Adamlar dayanacağa görə pul verir, kimin cibinə gedir, məlum deyil. Hacıbalanı dindirsən, deyəcək mənim funksiyam yoxdur, ancaq nəsə iş görmək istəsən Bakı ŞİH-in adından bir sürü yəcuc-məcuc qəbiləsi tökülüşüb gələcək.

Martın 6-da bir xəbər yayıldı: "Bu ilin yayında Bakıda keçirilməsi planlaşdırılan yelkənli qayıqların 470 Olimpiya sinfi üzrə dünya çempionatı baş tutmayacaq. Ötən il Yunanıstanın Afina şəhərində Beynəlxalq Assosiasiyanın Baş Assambleyası mötəbər yarışı keçirməyi Azərbaycana həvalə edib.

Amma maliyyə probleminə görə Azərbaycan Yelkənli İdman Federasiyası dünya çempionatını təşkil etməkdən imtina edib".

Ancaq fikrimcə, maliyyə problemi boş söhbətdir. Sadəcə, hökumət baxır ki, əgər yayda Formula-1 yarışı vaxtı Bakıya azca yağış yağsa, maşınları onsuz yelkənli qayıq kimi sürmək imkanları olacaqdır. Buna "bir turnirlə iki quş vurmaq" dövlət siyasəti demək olar.

## Türkiyə-Azərbaycan müttəfiqliyinə şimaldan ilginc reaksiya




# Kremldən Bakıya Qarabağ hədəsi - "Gürcüstan ssenarisi" təkrarlana bilər!.."

**Vaşinqtonda keçiriləcək IV Nüvə Təhlükəsizliyi Sammiti çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün planlaşdırılmadığı bəlli olub. Bu barədə Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik bildirib.**

## Putinə yaxın nüfuzlu siyasi-analitik qurumun hazırladığı məruzədə "Müharibə başlasa, Rusiya Ermənistanın yanında olacaq, Bakı və Moskvanın maraqları kəskin toqquşacaq" xəbərdarlığı yer alıb; prezidentlərin Amerika görüşünün düyünə düşməsinin daha bir səbəbi üzə çıxır; ekspertlər deyir ki...

"Hazırda prezidentlərin Vaşinqtonda görüşü barədə heç bir plan yoxdur. Bununla belə, biz prezidentlər arasında aktiv dialoqun aparılmasına vasitəçi olmağa hazırıq. Digər həmsədrlərin adından Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin gedişini müzakirə etmək üçün tərəflərlə görüşlər keçirməyi planlaşdırıram" - deyə, diplomat vurğulayıb.

Xatırladaq ki, az öncə vasitəçilərin ABŞ-da Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etməyə çalışdıqları barədə xəbərlər yayılmışdı. O xüsusda bəzi analitiklər prezident Barak Obamanın iki prezidenti bir araya gətirə biləcəyini də istisna etməmişdilər. Bir çox siyasi müşahidəçilər isə Vaşinqtonda Rusiyasız baş tutacaq görüşlərə Moskvanın qıcıqlı yanaşacağı qənaətində idilər.

Ehtimal ki, prezidentlərin görüşünün təxirə salınmasında bu amil də rol oynayıb. Daha çox da Azərbaycan bu amili nəzərə almalı olub, həm də o səbəbə ki, rəsmi Bakı daima görüş xətrinə görüşün əleyhinə olduğunu bəyan edir. Lakin indi vəziyyəti daha həssas edən üstəlik, Rusiyanın Amerikanın təşəbbüskarlığından qıcıqlanmasıdır.

***

**Maraqlıdır ki, məhz ehtimali görüş ərəfəsində Moskvadan Bakıya Qarabağla bağlı, 2008-ci il "gürcü ssenarisi"nin xatırladıldığı hədə-mesaj gəlib. Məsələ ondadır ki, Rusiyanın aralarında sabiq qeyri-leqal kəşfiyyatçı Andrey Bezrukovun da olduğu aparıcı siyasi ekspertləri geniş ictimaiyyət üçün "Beynəlxalq hədələr - 2016" adlı hesabat hazırlayıblar. "İzvestiya" qəzetinin məlumatına görə, sənəd Rusiyaya əsas strateji hədələrdən bəhs edir və onlardan biri Qarabağ konflikti göstərilir.**

"2016-cı ildə Rusiya üçün sıravi vətəndaşlara elə də aydın olmayan hədələr də var - çünki KİV-lərdə bu hədəflər nadir hallarda diqqət mərkəzində olur. Söhbət öncəliklə Dağlıq Qarabağda konfliktin qızışmasından gedir - hansı məsələ ki, Suriya və Ukrayna böhranları üzündən ikinci plana keçib, lakin əslə az təhlükəli deyil. Son zamanlar orada artilleriya qurğularından istifadə olunmaqla atışmalar güclənib, tərəflər əsl silahlanma yarışına girib. Hadisələrin belə inkişafı Bakı və Moskvanın maraqlarının kəskin toqquşmasına, Rusiyanın Ermənistan tərəfdə müharibəyə qoşulmasına və 2008-ci il "gürcü ssenarisi"nin təkrarlanmasına gətirə bilər. Bu isə Rusiya-Türkiyə münasibətlərinin daha da pisləşməsini vəd edir, ona görə ki, Moskva və Ankara münaqişənin müxtəlif tərəflərini dəstəkləyir - müvafiq şəkildə Ermənistanı və Azərbaycanı" - hesabatda deyilir.

Diqqət çəkən digər mühüm detal odur ki, məruzənin təqdimatını "Valday" Beynəlxalq Diskussiya Klubu və "Xarici siyasət" Agentliyi həyata keçirəcək (dünən konfrans öz işinə başlamalı idi - red.) Konkret olaraq "Valday" Klubu - 2004-cü ildə yaradılmış analitik-ekspert mərkəzidir. Ən maraqlısı isə odur ki, prezident Vladimir Putin klubun hər il keçirdiyi konfrans iştirakçıları ilə ənənəvi olaraq görüşür.

Ayrı sözlə desək, nüfuzlu analitiklərin hazırladığı hesabatı sıradan sənəd hesab etməyə dəymir. Bu, bilavasitə Moskvanın daima öz siyasi-hərbi orbitində saxlamağa çalışdığı Azərbaycana ünvanlandığı ciddi xəbərdarlığı sayılmalıdır.

***

Bu xəbərdarlıq prezidentlər - İlham Əliyev və Serj Sərkisyanın mümkün Vaşinqton görüşü ərəfəsində peyda olmaqla yanaşı, təzəcə başa çatan Azərbaycan-Türkiyə birgə təlimlərinin, bütövlükdə son vaxtlar iki qardaş ölkə arasında bütün sahələr üzrə yaxınlaşmanın müşahidə olunduğu dönəmə təsadüf eləməsi ilə də diqqət çəkir.

Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı səfəri az sonra məhz belə bir situasiyada, şimaldan təhdidedici mesajın ardınca gerçəkləşəcək. Bəzi analitiklər nazirin qarşıdakı səfərinə həm də bu kontekstdən qiymət verir. Məsələn, rusiyalı politoloq Stanislav Tarasov hesab edir ki, Lavrovun Bakı danışıqları zamanı Dağlıq Qarabağ ətrafındakı son durum da müzakirə olunacaq.

"Qarabağ münaqişəsi çoxdan beynəlmiləlləşib. Minsk Qrupu danışıqlar prosesində iştirak edir. Azərbaycan-Türkiyə ittifaqı günü-gündən möhkəmlənir. Rusiya da həmçinin Dağlıq Qarabağ konfliktinin Cənubi Osetiya, Abxaziya münaqişələri ilə paralellik təşkil etmədiyinin fərqindədir. Böyük güclər artıq Cənubi Qafqaz da daxil olmaqla, Böyük Yaxın Şərq layihəsini reallaşdırırlar" - qeyd edib ekspert.

***

"İran-Türkiyə-Azərbaycan yaxınlaşması və bölgədə gedən bəzi pozitiv tendensiyalar, eləcə də Amerika və Avropa Birliyinin artıq birmənalı qaydada Azərbaycanı müdafiə etməsi Rusiyada həyəcan yaradıb. Bu isə Dağlıq Qarabağ probleminin həllində situasiyanı dəyişə bilər". Belə bir fikri isə **politoloq Qabil Hüseynli** Lavrovun gözlənilən səfərini axar.az-a şərh edərkən deyib.

**Sabiq dövlət müşaviri səfərin ikimərhələli olacağını düşünür:** "Birincisi, Bakıda Azərbaycan-Rusiya-İran xarici işlər nazirlərinin görüşü planlaşdırılır. Rusiyalı ekspertlər Moskvanın Qarabağa dair gizli planının olmasını ortaya atırlar. Zənnimcə, burada gizlilik qrifinə ehtiyac yoxdur. İkincisi, Azərbaycanın Qərb siyasətində aktivliyi artır. Qərb və ABŞ isə Azərbaycana diqqəti artırır. Bunu atılan xoşməramlı addımlar da göstərir".

**Politoloqa görə, bütün bunlar Bakının Qərbə meylliyini gücləndirməyə yönəlib:** "Qərbin qazla təmin olunmasında Bakının rolu Avropa tərəfindən çox müsbət qarşılanıb və ölkə rəhbərinə dəstək verilməsinin zərurəti vurğulanır. Moskva bu yaxınlaşmadan narahatdır. Bu məqsədlə Qarabağın fonunda Yaxın Şərq planından söz açırlar. Hətta plana Cənubi Qafqazdakı problemlərin həllini əlavə etmək istəyirlər. Lavrov Bakıya Azərbaycanla məhz Dağlıq Qarabağ ətrafındakı yeddi rayonun taleyinin müzakirəsi üçün gəlir. Moskva bununla bir daha göstərir ki, proses Rusiyanın nəzarətindədir. Böyük dövlətlər, özəlliklə də bölgədə xüsusi maraqları olan Rusiya bir tərəfdən yaranmış sabitliyin səbəbkarıdır, digər tərəfdən isə problemin həllinin bütün açarlarını öz əlində saxlamaqdadır".

Sözsüz ki, Azərbaycanın "gürcü ssenarisi" ilə təhdid olunmasının arxasında həm də bu açarları əldə möhkəm saxlamaq hədəfi dayanır.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 66 (6387) 30 mart 2016

# Azərbaycana qarşı yeni separatçılıq kartı işə salınıb - iddia

## Sabiq MTN-çidən həyəcan təbili; Müsavat başqanının müavini "talış separatizmi" ifadəsinə qarşı çıxdı...

**Sosial şəbəkələrdə Talış Mədəniyyət Mərkəzinin keçmiş sədri Novruzəli Məmmədovun qəbirüstünü əks etdirən bir foto sosial şəbəkələrdə son günlərin əsas müzakirə mövzularından biridir. Məsələ ondadır ki, fotoda talış bayrağının əks olunduğu da iddia edilir.**



Foto ətrafında gəzən iddialar, tənqidi fikirlər artmaqdadır. Belə iddialar var ki, Rusiya Azərbaycana qarşı 23 ildən sonra yenidən "talış kartı"ndan istifadə etmək istəyir. Hətta bununla bağlı hazırda Rusiyaya qazanc dalınca gedən milli azlıqlarla danışıqların getdiyi barədə xəbərlər dolaşır. Xəbər təsdiqini tapmasa da, Azərbaycan dövləti və xalqı üçün nə qədər təhlükəli olduğu sirr deyil.

Doğrudur, istər sosial şəbəkələr olsun, istərsə də mətbuat olsun, milliyyətcə talış olan şəxslər qəbir üstündə talış bayrağı ilə olan fotonu kəskin tənqid edirlər. Yəni bütöv bir toplumu, heç şübhəsiz, bu məsələdə suçlamaq yanlış olardı. Amma məsələnin getdikcə təhlükəli hala gələ biləcəyi ehtimalı da var.

**Müsavat başqanının müavini, Lənkərandan olan Yadigar Sadıqov talış bayrağı ilə yayılan fotoya facebook səhifəsində belə münasibət bildirib:** "Şəkildəki mənzərə qızğın müzakirələrə səbəb olub, separatizm ittihamları vüsət alıb. Bayraq Talış Mədəniyyət Mərkəzinin bayrağıdır. O mərkəzin ki, məzarı görünən Novruzəli Məmmədov bir müddət sədri olub. Hər bir dərnəyin, şirkətin, şəhərin, partiyanın, futbol klubunun bayrağı ola bilər. Bunu xüsusi şişirtməyə ehtiyac yoxdur. Doğrudur, 90-cı illərin əvvəllərində baş verən hadisələrə görə toplumumuz milli məsələyə həssas və emosional yanaşır. Könül istərdi ki, talış həmvətənlərimiz bunu nəzərə alıb, Azərbaycan bayrağını da dalğalandıraydılar. Ümid edirəm, gələcəkdə nəzərə alacaqlar".

**Başqan müavini qəzetimizə açıqlamasında "talış separatizmi" ifadəsinin işlənməsinin doğru olmadığını qeyd etdi:** ""Talış separatizmi" adlı bir şey yoxdur. Bu ifadənin işlənməsi talış həmvətənlərimizin haqlı narazılığına səbəb olur. Mətbuatdan bu məsələdə diqqətli olmasını rica edərdim. Rusiyanın isə belə cəhdləri yenilik deyil. Ayrı-ayrı şəxsləri öz oyunlarına cəlb edə bilər. Lakin dövlət müstəqilliyimizin qazanılmasında, Qarabağ savaşında misilsiz xidmətləri talışların bu oyunlara uymayacaqlarına, Hilal Məmmədovun, Mehdibəy Səfərovun, Rafiq Cəlilov və digər talış ictimai fəalların Azərbaycan vətənpərvərlərinin yanında olacaqlarına əminəm".

**Fotonu sosial şəbəkələrdə paylaşan sabiq MTN zabiti, polkovnik İlham İsmayıl da kəskin tənqidlərə məruz qalır. Onun talış milliyyətindən olan vətəndaşlarımız arasında narazılıq yaradan əsas fikirləri bunlardır:** "Separatçılar təkcə Moskvada və İrəvanda fəaliyyət göstərmirlər. Burada, Azərbaycanın ortasında da separatçı talış bayrağını qaldırıb bizi türk olmağımızda, türkçülükdə günahlandırırlar. Ermənilər də belə başlamışdılar, dedilər, narahat olmayın, olmadıq, xalqlar dostluğundan danışdıq, nəticədə Qarabağın 80 faizi işğal olundu. Bu şəkil bir neçə gün əvvəl çəkilib. Tarixdən bu qədər dərs almamaq, bu qədər milli biganəlik, bu qədər millətin, dövlətin, təhlükəsizliyinə cavabdeh olanların bacarıqsızlığı sonunda bizi məhvə aparır".



**İ.İsmayıl "Yeni Müsavat"a açıqlamasında fotonu paylaşdığı üçün bəzi arqumentlərin irəli sürüldüyünü bildirdi:** "Paylaşdığım fotodan sonra arqument irəli sürüldü ki, hər bir futbol klubunun, kiçik bir qurumun belə bayrağı ola bilər. Belə bir şey olsaydı, heç yazmazdım ki, kimsə bayraq qaldırıb. Neçə illərdən bəri söhbət gedir ki, xaricdə yaşayan milli azlıqlarımızı separatçılığa meyilləndirən güclər var. Rusiya və İranın talışları, ləzgiləri və avarları bu istiqamətə yönəltmək cəhdləri sirr deyil. Yeri gələndə ölkəmizə təzyiq vasitəsi kimi bu amildən istifadə edirlər. Talış bayrağının qaldırılmasını adi bir futbol klubunun bayrağının qaldırılması kimi qəbul etməməliyik. Bu prosesləri diqqətlə izləyirəm. Rusiya və İrəvanda olan talışlarla birlikdə "Talışıstan" televiziyası yaradılıb. Bu günə qədər bu televiziya 123 buraxılış edib. Artıq bir ildən çoxdur ki, faktiki fəaliyyət göstərir. Zabil Məhərrəmov adlı şəxs bu kanalın rəhbəridir. Facebook-da "Toloşon" qrupu var. Həmin kanal və qrupun fəaliyyətində açıq şəkildə dövlətimiz aşağılanır. Guya burada yaşayan etnik azlıqların hüquqları pozulur. Bu ərəfədə Novruzəli Məmmədov və övladlarının qəbirləri üstündə Talış Mədəniyyət Mərkəzinin bayrağı kimi təqdim edilən, əslində qalsa, üzərində "Talış Muğam Respublikası"nın da simvolları olan bayrağı paylaşan, bizləri aşağılayan şəxsləri gördükdə mən də belə bir status paylaşdım. Dövlət orqanlarını nəzərdə tutub, bununla bağlı qabaqlayıcı tədbirlərin görülməməsinə toxundum. Bu təhlükə böyüyə bilər. 50-60-cı illərdə ermənilər də belə fəaliyyət göstərirdilər. Ardınca proseslər böyüdü və sonda Dağlıq Qarabağın 80%-ni itirdik. O bayrağın paylaşılmasında kifayət qədər separatçı meyllər var. Martın 18-də Rusiyada Krımın birləşdirilməsi ilə bağlı keçirilən marşda talışlardan olan İsmayıl Şabanovun rəhbərliyi ilə bayraq, şüarlar qaldırılıb. Şüarlarda "Krım, Talışıstan, Rusiya" səsləndirilib. Arxalarında Rusiyanı görüb belə addım atırlar. Azərbaycan hökuməti tədbirlər görməlidir. Amma bunu təəssüf ki, görmürük. Azərbaycanda yaşayan talışların 90%-i bunun əleyhinədir. Amma dama-dama göl olar. Əks təqdirdə, təhlükələr yaşaya bilərik. Yeri gələndə hətta bizi hədələyirlər. "Talışıstan" kanalının 118-ci buraxılışında deyirdilər ki, rəhbərlərimizin başından tük əksik olsa, sizlərə "Varfolomey gecəsi"ni yaşadarıq. Bu açıq hədədir. Həyəcan təbili çalıram. Hədəfimdə bu işə göz yuman səlahiyyət sahibləridir. Separatçılar əvvəldən var. İranda hər gün talış dilində bir saat xəbər verilir. Bu nə deməkdir? Təhlükəni görürəm, səlahiyyət sahiblərinin bunun qarşısını almaları bir nömrəli vəzifələridir".

**Sabiq MTN-çi Rusiyanın Azərbaycana qarşı "talış kartı" hazırlaması barədə fikirlərə də münasibət bildirdi:** "Bu kart xüsusilə Rusiyada hazırlanır. İnternetdə baxa bilərsiz, hazırlanan verilişlərdə Rusiya tərəfindən təlimatlandırılmış şəxslər yönləndirici suallar verirlər. Talış Mədəniyyət Mərkəzinin adı ilə verilişlərə gələn şəxslər dövlətimiz əleyhinə fikirlər səsləndirirlər. Rusiyada talışlardan ibarət çoxsaylı dərnəklər fəaliyyət göstərir. Rusiya onları yetişdirir. Yana Amella adlı şəxs jurnalist kimi fəaliyyət göstərir. O, təlimatlandırılmış agentdir, amma jurnalist kimi özünü təqdim edir. O, Ələkrəm Hümmətova sual verir ki, Azərbaycanda terror törətmək istəyərsiniz? Bu, jurnalist sualı ola bilməz. Ələkrəm da cavab verir ki, mənə bunu məsləhət görüblər, amma hələ ki çəkinirəm. Bunu görə-görə susmamalıyıq. Ola bilsin ki, talışların çoxunun bundan xəbəri yoxdur. Amma gənc nəsil yetişir. Onların tərbiyəsində qeyd etdiyim kanallar, qruplar, saytlar rol oynaya bilər və beyinlərini yuya bilər. Lənkəran-Moskva təyyarəsinin açılması Azərbaycanın, sizcə, xeyrinə ola bilər? O məsələnin görünməyən tərəfləri var. Bakının nəzarəti olmadan Rusiyaya xüsusi gediş var. Təhlükəsizlik orqanlarımız bununla birbaşa məşğul olmalıdırlar".

❑ Cavanşir ABBASLI



## Ərdoğan Vaşinqtonda Obama ilə görüşəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ səfəri çərçivəsində prezident Barak Obama ilə görüşəcəyini açıqlayıb. Virtualaz.org Türkiyə KİV-ə istinadən bildirir ki, bu barədə prezident Ərdoğan Amerika səfərindən əvvəl hava limanında təşkil etdiyi mətbuat konfransında məlumat verib.**

Ərdoğan görüşlə bağlı deyib: "Orada bir çox liderlə görüşəcəyik. Obama ilə də görüş hazırlanıb. Bu səfər yalnız Obamanın ikitərəfli görüşü üçün dəvət deyil. Bu zirvə görüşü üçün bir dəvətdir. 50-dən çox lider orada iştirak edəcək. Orada iştirak edəcək liderlərin ciddi bir qismi ilə ikitərəfli danışıqlar olacaq. Biz də Obama ilə ikitərəfli görüş keçirəcəyik".

Xatırladaq ki, bundan əvvəl Obamanın sammit çərçivəsində Ərdoğanla görüşdən imtina etməsi barədə xəbər yayılmışdı.

Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalın isə bildirmişdi ki, "səfər zamanı iki ölkə prezidentinin görüşünə ehtiyac yoxdur".

YENİ MÜSAVAT
N 66 (6387) 30 mart 2016



# Rəhmətlik redaksiyaya zəng edirsə...

Samir SARI

**İndi yazacağım əhvalat beş-altı il bundan öncə baş verib. Hadisə Bakı Metropoliteninin sabiq rəisi, unikal və unudulmaz insan Tağı Əhmədovun başına gəlib. Bunu o özü jurnalistlərə danışıb.**

Heç demə, bir gün yeni açılmış saytlardan biri hansısa niyyətlə götürüb yazıb ki, Tağı Əhmədov ölüb. ("Hansısa niyyət" söz birləşməsinin altına İP ("ay-pi") toplamaq arzusundan tutmuş, xərac qopartmaq ehtirasına qədər bir çox şeylər girir). Öldüyü barədə xəbəri Tağı müəllimə yaxın adamlarından biri verib. Cənab Əhmədov təbii ki, xəbərə inanmayıb və araşdırmaq qərarına gəlib ki, görsün, bunu yazanlarda hər hansı bir əlavə informasiya varmı.

Xüləs, metropoliten rəhbəri arayıb-araşdırır, saytın redaksiyasının telefon nömrəsini tapır və götürüb zəng vurur. Telefon zənginə saytın əməkdaşı cavab verir. Əhmədov özünü təqdim edir: "Bala, mən Tağı Əhmədovam". Əməkdaşın həmin o "sensasion, şok" xəbərdən xəbəri varmış, ona görə də şoka düşür, deyir, Tağı müəllim, bəs axı deyirlər ki, siz ölmüsünüz. Tağı müəllim cavab verir: "Düz deyirlər. Bu saat qəbiristanlıqdan zəng edirəm, o dünyadan. "Qurd qapısı"ndan". Sayt əməkdaşı çaşqınlıq içində nəsə mıqqıldayır, Əhmədov isə ona görüş təyin edir: "İnanmırsansa, bu saat gəl "Qurd qapısı" qəbiristanlığına, adam göndərəcəm, səni qarşılayacaq".

Dialoq bu yerdə bitir, çünki saytın əməkdaşı dəstəyi asır. Güman ki, o, qəbiristanlığa gedəcəyi təqdirdə T.Əhmədov tərəfindən göndərilmiş hansısa meyitin onu qarşılayacağından qorxduğuna görə yox, sağ adamın ölməsi barədə yalan xəbər yaydıqlarına görə xəcalətindən telefon rabitəsinə son qoyub.

Ən pisi odur ki, son günlər əvvəlcə "ölüb", daha sonra "ölməyib" feli ilə bitən xəbərlər artıb. O gün İlhamə Quliyevanın oğlulluğu Orxan Nadirovun evinin qabağında cəsədinin tapıldığı barədə xəbər yaymışdılar, adam çıxdı, dedi ki, elə şey yoxdur, sağ-salamatdır, özü də hüquq-mühafizə orqanlarına müraciət edərək bu xəbəri yazanlara iş açdıracaq.

Dünən Arif Quliyevin barəsində də "ölüb" xəbəri çıxmışdı. Özü də üçüncü dəfə. Sonra da deyirlər, atalar üçdən deyib. Amma tanınmış aktyorumuz sübut elədi ki, ataların bu kəlamı onun üçün keçərsizdir. İndi ən qorxulusu odur ki, axırda ataların daha bir kəlamı *("Yalançının evi yandı, heç kəs inanmadı")* doğrula.

Bu ənənə təkcə bizdə deyil. Rusiyada da Alla Puqaçovanı vaxtaşırı "öldürürlər". Bəzən özü, ya da qızı Kristina çıxıb təkzib eləyir. Axırıncı dəfə ümumiyyətlə təkzib eləmədilər.

Bir dəfə İosif Kobzonu da "öldürmüşdülər". Amma ona çox adam inanmamışdı, demişdilər, kim ölsə də, Kobzon ölməz.

Yazıq elə bircə Maykl Cekson oldu, cəmi bir dəfə "öldü" xəbəri çıxdı, fanatları ha gözlədi ki, bu xəbər təkzib olunacaq, amma olmadı, hələ də olunmayıb. Böyük ehtimalla xəbər doğrudur.

Bin Ladenin də ölməsi barədə xəbər dünyanın bütün telekanallarında, qəzetlərində gedib, amma milyonlarla adam inanır ki, Üsamə ölməyib, onu gizli bunkerdə saxlayırlar, vaxt gələcək, buraxacaqlar.

"Öldü" xəbəri üzrə mütləq dünya rekordsmeni İŞİD-in lideri Əbubəkr əl-Bağdadidir. Adam onbeş qat rəhmətlikdir. Di gəl, hər dəfə onun bəd xəbəri təkzib olunur. ABŞ təyyarələri Bağdadinin maşınını raketlə vurmaqdan bezar olublar, xeyri yoxdur, İŞİD-in mətbuat xidməti boyun almır. İkisinin biridir, ya adam, türkün sözü, doqquz canlıdır, ya da onu çoxdan öldürüblər, sadəcə, ona oxşar adamların şəklini, videosunu çəkib yayırlar ki, təşkilatda ruh düşkünlüyü əmələ gəlməsin. ABŞ təyyarəçiləri isə bir dəfə çox əminliklə "Bağdadini vurduq" demiş, hətta 226 kiloluq aviabombanın bərəkətinə and içmişdilər.

Bir sözlə, hər "öldü" xəbəri çıxan gerçəkdən də ölmür. Hərçənd elə olur ki, adamın öldü xəbəri çıxır, amma ardınca "hələ ölməyib" xəbəri yayılır, iki gündən sonra elan olunur ki, adam doğrudan da ölübmüş. Belə vəziyyətdə adam bilmir neyləsin.

Ancaq təcrübə göstərir ki, sağ adamın haqqında "öldü" xəbəri yazanlarla məhz Tağı müəllim kimi davranmaq lazımdır. Zəng edib deyirsən ki, "o dünyadan zəng edirəm, burda hava istidir, qır əridirlər", ya da "içindən çaylar axan sərin bağdayam, hurilərlə topaldıqaç oynayıram, diktofonunu da götür gəl".

# Əvvəl təltif edilib, sonra işdən çıxarılan rektor

**Asəf İsgəndərov prezidentin sərəncamı ilə Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilib. Ancaq digər sərəncamla o, Azərbaycan Respublikasında təhsil sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilib. Onun əvvəlcə təltif edilib, sonra vəzifəsindən götürülməsi müxtəlif sualların yaranmasına səbəb olub.**



**Hacıbaba Əzimov:**
"Asəf İsgəndərovun Rusiyanın agenti olan adamlarla qohumluğu var"



**Yadigar Sadıqov:**
"O, çoxdan işdən çıxarılmalı idi"

Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri, Lənkəran Dövlət Universitetinin qurucusu və ilk rektoru, professor Hacıbaba Əzimov qəzetimizə açıqlamasında universitetin sonradan bazara döndüyünü dedi: "Azərbaycan hökumətinin Lənkəranda universitet yaratmaq fikri olmayıb. Mən deputat olanda baş nazirə şəxsən müraciət edib Bakı Dövlət Universitetinin Lənkəran filialının açılması haqqında qərar almışam. Qısa müddətdən, 5-6 aydan sonra isə filialın müstəqil dövlət universiteti olması haqqında Nazirlər Kabinetindən yeni qərar aldım. Yəni mən bu universiteti sıfırdan qurmuşam və 90-cı illərdə LDU nümunəvi universitet olub. Azərbaycanda ilk dəfə olaraq rüşvətin, korrupsiyanın olmadığı bir ali məktəb yaranmasına nail oldum.

Mənim məqsədim Vətənə layiqli, savadlı kadrlar yetişdirmək idi. Buna da nail olduq. Birinci buraxılışlarımız həqiqətən savadlı, səviyyəli məzunlar oldu. Tələbələrin və məzunların bu cür savadlı olmasının səbəbi isə o zaman LDU-da rüşvətin olmaması, qiymətin sırf biliyə görə verilməsi, tələbənin biliyinin düzgün dəyərləndirilməsi idi. Daha sonra Rusiya və İran kəşfiyyatı plan qurub heç bir əsas olmadan məni universitetdən kənarlaşdırılmağıma nail oldular. O zaman təhsil naziri Lidiya Rəsulova idi. Azərbaycanda bu insan qədər pak, təmiz bir vəzifə sahibi, nə də nazir olmayıb. Lidiya Rəsulovanı məcbur etdilər ki, mənim əmrimi versin və qeyri-qanuni də olsa məni universitetdən kənarlaşdırsın. Ona görə Lidiya xanım öz ərizəsini yazıb könüllü şəkildə nazir vəzifəsindən getdi. Mən bu cür mərd insanlarla işləmişəm. Ümumiyyətlə, normal işləyən, dövlətçiliyə, millətə xidmət edən adamların çoxunu vəzifələrdən kənarlaşdırdılar. Məndən sonra Lənkəran Dövlət Universitetinə Mirzağa Bağırovu rektor təyin etdilər. Bu adam oranı məhv etdi. Rüşvət kəllə -çarxa çıxdı və universitet bazara döndü. Axırda da Hesablama Palatasının yoxlamasına görə LDU-da köhnə pulla 500 milyon büdcə pulu yeyildiyinə görə M.Bağırovu çıxartdılar. Bu insanın taleyi faciəvi oldu və rəhmətə getdi.

Daha sonra universitetə indi işdən çıxarılan Asəf İsgəndərovu gətirdilər. Hələ 1993-cü ilin iyun-avqust aylarında Lənkəranda icra başçısını qovaraq hakimiyyəti ələ keçirmiş Ələkrəm Hümmətov saxta Talış Muğan Respublikasının "prezidenti" adı ilə Asəf İsgəndərovu rektor vəzifəsinə gətirmək üçün gizli əmr vermişdi. Amma xalqın və mənim qabağıma çıxa bilmədikləri üçün, az sonra isə xalqın iradəsi və LDU kollektivinin fəal iştirakı ilə separatçı qrup Lənkərandan qovulduğundan, bu əmr icrasız qaldı. Amma daha sonra Asəf İsgəndərovu nəhayət ki, gətirib rektor qoydular. Mən açıq deyim ki, Rusiya xüsusi xidmət orqanlarının Azərbaycanda müəyyən vəzifələrə yerləşdirilmiş adamlarının əli ilə bu adam rektor gətirildi. Bundan sonra Lənkəranda separatçılıq əhval-ruhiyyəsi çiçəkləndi. İndi də bu proses gedir. Asəf İsgəndərovun Rusiyanın agenti olan adamlarla qohumluğu var. Bu məsələ mətbuatda da dəfələrlə qeyd olunub. Ələkrəm Hümmətov da elə buna görə onu rektor vəzifəsinə gətirmək istəyirdi".

**H.Əzimov sabiq rektorun neçə illərdir Rusiyanın Azərbaycandakı 5-ci kalonunun himayəsi ilə vəzifədə qaldığını söylədi:** "Azərbaycanda real vəziyyət belədir. Mən bilmirəm onun yerinə kim gələcək, bəlkə ondan da pisi gəldi. Onu deyə bilmərəm".

Vaxtilə Lənkəran Dövlət Universitetində müəllim vəzifəsində çalışmış Müsavat Partiyasının başqan müavini Yadigar Sadıqov hazırda işdən kənarlaşdırılan sabiq rektor Asəf İsgəndərovun dövründə çalışıb və elə onun tərəfindən də işdən azad edilib. Ona görə də Y.Sadıqovun da məsələyə münasibətini öyrəndik.

**Y.Sadıqov Asəf İsgəndərovun universitetdə təhsilin səviyyəsinin qaldırılması üçün heç bir iş görmədiyini bildirdi:** "Asəf İsgəndərov təəssüf ki, Lənkəran Dövlət Universitetində lazım olan dəyişiklikləri etmədi. Əvvəlki rektorun dövründə olan qanunsuzluqlar, məsələn, imtahanlarda olan savadsızlıq, korrupsiya və sair məsələlər Asəf İsgəndərovun dövründə daha da dərinləşdi, mərkəzləşdi. Mən 5 ilə qədər Asəf İsgəndərovla işlədim. Universitetdə təhsilin səviyyəsinin qaldırılması ilə bağlı irəliləyiş olmadı. Xüsusən də mənim ixtisasım olan tarix fakültəsi gah tarix-coğrafiyaya çevrildi, gah da tarix müəllimi adlı əcaib bir şəkil aldı. Asəf İsgəndərov çox mənasız islahatlar keçirməklə məşğul oldu. Fikrimcə, o çoxdan işdən çıxarılmalı idi. Nəhayət, Pərviz Əzimov Lənkəranda Dalğa Gənclər Hərəkatının şöbəsini yaratdığına görə universitetdən uzaqlaşdırıldı, sonra isə məni işdən çıxardı. Siyasi məsələlərdə heç bir dözümə malik olmayan insan idi".

❑ Günel MANAFLI

# Milli Şura rəhbərliyi Rüstəm İbrahimbəyovla görüşə bilməyib

## Bu gün qurumun Koordinasiya Şurası toplanacaq, fəxri sədr ora qatılacaqmı?

**"Milli Şuranın rəhbərliyi ilə Rüstəm İbrahimbəy arasında görüş olmayıb. Martın 30-da Koordinasiya Şurasının toplantısıdır. Təşəbbüs və ya dəvət olarsa, bu məsələ orada müzakirə oluna bilər. Yəni indiyə qədər bu məsələ müzakirə edilməyib".**



Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Oqtay Gülalıyev bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi. Qeyd edək ki, R.İbrahimbəyov hazırda Milli Şuranın fəxri sədri olaraq qalır və onun 3 illik fasilədən sonra Bakıya gəlmişkən, Milli Şuranın rəhbərliyi ilə görüşməsi, yaxud onların toplantılarına qatılması normal qarşılanardı. Lakin R.İbrahimbəyov özü də əməkdaşımıza deyib ki, hələlik bu mövzuda danışmaq istəmir və qardaşının 40 mərasiminədək susmağa üstünlük verir. Fakt budur ki, hazırda Milli Şura rəhbərliyində R.İbrahimbəyova yekdil münasibət yoxdur. Elə M.İbrahimbəyovun vida mərasimində iştirak məsələsi də bunu təsdiqlədi. Belə ki, qurumun yalnız iki nümayəndəsi Milli Şuranın sabiq sədri, hazırkı fəxri sədrinin qardaşının yasına getdi. Hətta bəziləri iqtidarın siyasi kursunun müdafiəçisi olmuş keçmiş deputat M.İbrahimbəyovun yasına gedənləri də sərt şəkildə ittiham etdilər və Əli Kərimliyə bəraət qazandırdılar.

**O.Gülalıyev Milli Şura rəhbərliyindən yalnız Cəmil Həsənli və Eldəniz Quliyevin R.İbrahimbəyun qardaşı Maqsud İbrahimbəyovun yas məclisində iştirak etməsi, bu məsələ ilə bağlı hətta təhqirlərlə müşayiət olunan diskussiyaların getməsinə belə reaksiya verdi:** "Mən bu barədə bir söz deyə bilmərəm. Bu, fərdi məsələdir". O.Gülalıyev Milli Şuranın sədri Cəmil Həsənlidən fərqli olaraq, AXCP sədri Əli Kərimlinin M.İbrahimbəyovun yasına getməməsi məsələsinin Milli Şura daxilində hər hansı problem yaratmayacağını da vurğuladı.

Qeyd edək ki, R.İbrahimbəyovun martın 23-də Azərbaycanı tərk etdiyi bildirilsə də, kinorejissor əməkdaşımızla telefon söhbətində hələlik Bakıda olduğunu bildirib. Ancaq hakimiyyətin ona "yaşıl işıq" yandırmasının qarşılığında çətin ki, R.İbrahimbəyov Milli Şura rəhbərliyi, xüsusilə də Ə.Kərimli ilə görüşsün. Bu, ona münasibəti yenidən mənfi istiqamətdə dəyişə və əlavə problemlər yarada bilər. Odur ki, R.İbrahimbəyovun Milli Şuranın bugünkü toplantısına qatılması real görünmür.

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 66 (6387) 30 mart 2016



# “NAZ-Lifan” avtomobillərinin istehsalı niyə dayandı?

## Ekspertlər bunu dolların bahalaşması və avtomobil bazarındakı durğunluqla əlaqələndirir

**Bu il başlayandan Azərbaycanın yeganə istehsalı olan “NAZ-Lifan” avtomobillərinin istehsalı dayandırılıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, il başlanandan bəri Naxçıvan Avtomobil Zavodunun (NAZ) konveyerindən bir ədəd də məhsul çıxmayıb.**

Xatırladaq ki, ilin əvvəlində dövlət başçısı İlham Əliyev Naxçıvan avtomobillərinə diqqət çəkərək, dövlət qurumlarını, hökumət rəsmilərini “NAZ-Lifan” almağa çağırmışdı. Hətta cəmiyyətdə belə bir gözlənti var idi ki, bu çıxışın ardından “NAZ-Lifan”a tələbat artacaq, bununla əlaqədar zavodun istehsalı və gəlirləri də artacaq. Lakin DSK-nın son məlumatı bu prosesin heç də gözlənildiyi kimi olmadığını aşkara çıxarıb.

Naxçıvan Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə muxtar respublikada 725 ədəd minik avtomobili yığılıb. Əvvəlki illə müqayisədə istehsal 1136 ədəd azalıb.

Ümumiyyətlə isə istehsala başlanandan bəri burada 4600-dək avtomobil buraxılıb. Zavodun əsas alıcısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir.

**Zavodun istehsalı dayandırmasının ehtimal olunan səbəblərini sadalayan iqtisadçı ekspert Natiq Cəfərli isə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, buna səbəb devalvasiyaya görə Çindən gətirilən avtomobil hissələrinin bahalaşmasıdır:** “Dövlət Statistika Komitəsinin Naxçıvan bölməsindən məlumat yayılıb ki, bu ilin ilk iki ayında ”NAZ-Lifan" avtomobillər zavodunda avtomobil yığılması dayandırılıb. Bir dənə də maşın istehsal olunmur. Biz əvvəllər də demişdik ki, bu prosesi avtomobil istehsalı adlandırmaq doğru olmazdı. Orada, sadəcə, Çindən gələn maşın hissələri bir-birinə birləşdirilirdi. Bu, istehsaldan daha çox yığma prosesini xatırladır. İkinci devalvasiyadan sonra Çindən gətirilən ehtiyat hissələrinin dəyəri də adekvat olaraq iki dəfə artdı. Çünki detallar xaricdən valyuta ilə alınıb ölkəyə gətirilirdi. Çox güman ki, qiymətlərdə ciddi fərq yaranması ehtimalı da var idi. Ona görə də “NAZ-Lifan” zavodundan rəsmi açıqlama da olmuşdu ki, qiymətlərin 30-35 faiz qalxması ehtimalı var. Görünür, indiki bazar şəraitində Çindən gətirilmiş detalların qiymətinin artması səbəbindən Naxçıvandan yığılmış avtomobillərin maya dəyəri xeyli dərəcədə yüksəlib və maya dəyəri də artıb".

**Ekspertin sözlərinə görə, “NAZ-Lifan” avtomobillərinin bazar qiymətinin artması rəqabətə davam gətirmək məsələsini ortaya çıxarır:** “Çünki indi Azərbaycanda fəaliyyət göstərən diller şəbəkələri qiymətləri sabit saxlamaqla və ya cüzi artım etməklə bazara təklif edirlər. Onsuz da avtomobil bazarında ciddi durğunluq müşahidə edilir. Hətta xaricdən gətirilən ikinci əl avtomobillərin həcmi bu ilin iki ayında 28 dəfə aşağı düşüb. Ona görə də bazarda ümumiyyətlə durğunluq var. Çox güman ki, bu durumu nəzərə alaraq, Naxçıvan Avtomobil Zavodunda avtomobillərin Çindən gətirilmiş detallardan yığılması sərf eləmir. Bu günə qədər Naxçıvan avtomobil zavodunun əsas sifarişçisi dövlət idi. Dövlət Sosial Müdafiə Fondu bu günə qədər buraxılan avtomobillərin təqribən 70-80 faizini alırdı. Çox güman ki, DSMF-də də bu il bu tipli məsələlərə vəsaitin ayrılması haqqında qərar yoxdur. Ona görə də dövlət sifarişinə bağlı olan zavodun fəaliyyətinin indi dayandırılması çox təbii addımdır. Çünki bu zavod bazarda rəqabətə davam gətirəcək məhsul istehsal etmirdi”.

❑ **Nərgiz LİFTİYEVA**

# Bakıdan turistlər niyə qaçaq düşüb?

## Ekspertlər səbəbləri açıqlayır...



**Bakıda son illərdə xeyli yeni hotellər tikilib. Həmçinin şəhərin xarici görünüşündə müsbətə doğru bir çox dəyişikliklər baş verib. Ancaq bütün bunlara baxmayaraq, turistlərin sayında artım müşahidə olunmur. Bu sahə ilə məşğul olanların fikrincə, əslində Bakı getdikcə turistlərin maraqlarından kənarda qalmağa başlayır. Bunun səbəbi isə müxtəlif cür izah edilir.**

Rəsmi statistikaya görə, son 10 ildə ölkəyə gələn turistlərin sayı nəzərəçarpacaq dərəcədə azalıb. Misal üçün, 2008-ci ildə Azərbaycana turist yollayışı ilə gələnlərin sayı 19,2 min təşkil etdiyi halda, 2014-cü ildə bu göstərici 10,6 minə düşüb. Bu rəqəmlərdən də göründüyü kimi bəhs etdiyimiz sahə üzrə iki dəfəyə yaxın azalma müşahidə olunur.

Eyni zamanda ölkədən xaricə turizm yollayışı ilə gedən turistlərin sayı isə ildən-ilə artıb. Elə yuxarıda qeyd etdiyimiz illərdə xaricə gedənlərin sayına diqqət etsək şahidi oluruq ki, 2008-ci ildə Azərbaycandan xaricə 40,3 min nəfər turizm yollayışı ilə səfər etmişdisə, 2014-cü ildə bu say 81,6 minə qalxıb. Burada isə təxminən iki dəfə artım var.

**Məsələ ilə bağlı musavat.com-a danışan turizm üzrə ekspert Məmməd Əliyev bildirib ki, Bakıya turistləri cəlb etmək üçün ilk olaraq burada qiymətlərə nəzarət etmək lazımdır:** “Digər ölkələrlə müqayisədə demək olar ki, Bakı turistlərin marağında deyil. Çünki hər şey bahadır. Ancaq son illərdə əvvəlki zamanlarla müqayisədə az da olsa turistlərin sayında artım müşahidə olunur. Lakin bu, nəzərəçarpacaq dərəcədə böyük rəqəmlərlə deyil. Bakıda keçirilən oyunların da turizmin inkişafına təsiri deyərdim ki, olmadı. Novruz bayramı ərəfəsində adətən Bakıya iranlılar çox gəlirlər. Digər ölkələrdən isə demək olar ki, gələn olmur. Hotellərə baxsaq, bunu açıq şəkildə görmək olar. Bütün hotellər boşdur. Əgər İstanbulda 3-5 ulduzlu hotellərə baxsaq, orada çox az halda boş yer görmək olar. Turistlərin əksəriyyəti Azərbaycana gəlincə, buradan daha ucuz olan Gürcüstana getməyi üstün tuturlar”.

**Ekspert Elxan Vəliyev isə Azərbaycanda turizmin inkişafı üçün hansı addımların atılmalı olduğunu bildirib:** “İlk növbədə qeyd edək ki, əvvəlki illərlə müqayisədə ölkədə turizmlə bağlı müəyyən tədbirlər həyata keçirilib. Ölkə başçısının hökumətin müşavirələrində bu sahə ilə bağlı tapşırıqlarından sonra da müəyyən hərəkətlilik var. Görülən tədbirlərdə rentabellik də nəzərdən keçirilsə, daha yaxşı olardı. Nəzərə alsaq ki, turizm sektorundan gələn gəlirlər iqtisadiyyatımızda bank sektorundan sonra ikinci barometr rolunu oynayır, o zaman bu sahənin inkişafı üçün konkret olaraq ciddi addımlar atılmalıdır. İlk növbədə bu sahədə maarifləndirməyə diqqət etmək lazımdır. Bu, həm ölkə daxilində, həm də xaricdə aparılmalıdır. Ölkə daxilində fəaliyyət göstərən şirkətlər maarifləndirilmə ilə bağlı lazımi tədbirlər həyata keçirmirlər. Şirkətlər daha çox xaricə meyllənməli, rəqabəti daha çox xarici bazarda axtarmalıdır. Yəni gəlirlərin formalaşmasında gəlmə turizmi prioritet olaraq qəbul olunmalıdır. Bu kimi məqsədli şirkətlərə də müəyyən güzəştlər şamil edilməlidir. Çünki onların gətirəcəyi hər bir xaricinin ölkənin inkişafında böyük rolu olacaq. Eyni zamanda bu sahədə qeyri-hökumət təşkilatlarının azlığından istifadə edərək də müəyyən qurumlar öz mənafelərinə uyğun davranırlar. Nəticədə isə ölkədə 2-3 şirkət mənafeyinə uyğun şəkildə bazarda oyunlarını həyata keçirir. Koordinasiyada kifayət qədər boşluq var. Bu hal da ölkənin turizm sektorunun inkişaf etməsinə mənfi təsir göstərir”.

**Ekspert bildirib ki, eyni zamanda ölkəmizdə artıq çoxdan gözlənilən “taks-fri” güzəşti tətbiq edilməlidir:** ““Taks-fri” xarici müştəriyə ölkəni tərk edərkən aldığı əşyalara xərclədiyi əlavə dəyər vergisinin məbləğinin geri qaytarılmasıdır. Bu güzəştin də tətbiq edilməsi turizmin inkişafına şərait yaradar. Bundan başqa, viza rejimində də dəyişiklik etmək olar. Misal üçün, konkret ölkələr seçilməlidir. Müəyyən zaman kəsiyində viza rejimi yığışdırılarsa, ölkəyə turist axınını təşkil etmək olar. Bu istiqamət üzrə də artıq bir çox addımlar atılıb. Novruz bayramı ərəfəsində ölkəyə turistlər gəldilər. Onlar pul xırdalamağa yer tapmırdılar. Bütün bu kimi xırda məsələlər də turistlərin ölkəyə axınına təsir edən amillərdəndir. Bunun qarşısını almaq lazımdır".

**E.Vəliyev həmçinin qeyd edib ki, hotellərin şirkətlərlə sıx əlaqədə olmaması ölkədə turizm sektorunun inkişafına mane olur:** “Dünya təcrübəsinə əsaslansaq görərik ki, hotellərlə şirkətlər arasında sıx əlaqələr mövcuddur. Bizim ölkəmizdə bu hal arzuolunan səviyyədə deyil. Eyni zamanda turistlərin daha çox gənclər olduğunu nəzərə alarsaq, onlar üçün əyləncə məkanları da yaradılmalıdır. Həmin obyektlər xüsusi nəzarət altında saxlanılmalı və ancaq xarici qonaqlar üçün fəaliyyət göstərməlidir. Turistə ölkəmizdə pulunu xərcləməsi üçün şərait yaratmaq lazımdır”.

❑ **Əli RAİS**

# Dünya Bankı Azərbaycanda yol tikintisinə 140 milyon dollar ayırdı



**Dünya Bankı Bakı-Şamaxı avtomobil yolunun genişləndirilməsi məqsədilə Azərbaycana 140 milyon dollar həcmində maliyyə vəsaiti ayırıb. APA-nın məlumatına görə, bu barədə Dünya Bankının mətbuat xidməti xəbər verib.**

Məlum olduğu kimi, Azərbaycan hökuməti Bakı-Şamaxı avtomobil yolunun dörd zolağadək genişləndirilməsi üçün bankdan əlavə maliyyə vəsaiti almaq üçün müraciət etmişdi.

Mətbuat xidmətinin məlumatında həmçinin bildirilir ki, Dünya Bankı eyni zamanda Belarusa büdcə vəsaitlərinin idarəetmə sisteminin təkmilləşdirilməsi üçün 10 milyon ABŞ dolları ayırıb.

Yeni MÜSAVAT
N 66 (6387) 30 mart 2016





Azərbaycan Respublikası adından

Azərbaycan Respublikası Ali Məhkəməsi

Mülki Kollegiyasının

QƏRARI

MÜƏYYƏN ETDİ:

İşin halları:



«Azərbaycan Respubli
edilməsi barədə» Azərbayca
IIIQD nömrəli Qanunun
Prezidentinin 689 NS-li, 26.1
dövlət ehtiyacları üçün alınan
əmlakın qanunvericiliyə uy
miqdarında satınalma qiymə
Bundan başqa, «İnsa
haqqında konvensiyanın 1-
hüquqi şəxs öz mülkiyyətinə
cəmiyyətin maraqları namin
lə nəzərdə tutulmuş şərtlər
bilməz.
Eyni zamanda məhkə
rayonu, Mirzə Ağa Əliyev
mənzilin, həmçinin, Bakı şə
ylı binanın 14 saylı mənzil
lakın bazar qiymətini və

# Abutalıbov məhkəmə qərarlarını saymır

## Vətəndaşlara ödənilməli olan kompensasiyanı kimlər mənimsəyib?

**Bakıda bir qrup vətəndaş Bakı Şəhər İcra Hakimiyyəti ilə Ədliyyə Nazirliyi arasında olan yolu ölçməkdən yorulub. Ali Məhkəmədən meriya, Prezident Administrasiyasından Ədliyyə Nazirliyinə göndərilən vətəndaşların bu günə qədər qapısını döymədikləri dövlət qurumu qalmayıb. Lakin problemlərinin həlli müşkül məsələ çevrilib. Həm də əllərində prezident İlham Əliyevin imzaladığı fərmanın surəti və onların haqlı olduğunu sübut edən Ali Məhkəmənin qərarı olduğu halda...**

Həmin vətəndaşlar Bakının Nəsimi rayonu, Mirzağa Əliyev küçəsinin keçmiş sakinləridir. Musavat.com-a müraciət edən vətəndaşlar məmurların işə laqeyd yanaşmasından narazılıqlarını bildirirlər. Narazı vətəndaşlar çıxış yolunu problemlərinin ictimailəşdirilməsində gördüklərini deyirlər.

Əvvəlcə xatırladaq ki, bir neçə il öncə "Qış bulvarı"nın tikintisi zamanı Nəsimi rayonu ərazisində bir neçə küçədəki evlər sökülmüşdü. Yeni park salınarkən plana düşən mənzillərin sahiblərinə evlərinin kvadratmetrinə görə 1500 manat ödənilmişdi. Lakin vətəndaşların əmlakı bazar qiymətinə uyğun olaraq qiymətləndirilərkən onlara ödənilməli olan əlavə 20 faiz kompensasiya bu günə qədər verilməyib.

Prezidentin 689 NS-li, 26.12.2007-ci il tarixli fərmanının 2.3-cü bəndinə əsasən, dövlət ehtiyacları üçün alınan daşınmaz əmlakın mülkiyyətçisinə həmin daşınmaz əmlakın qanunvericiliyə uyğun olaraq hesablanmış bazar qiymətinin 20 faizi miqdarında satınalma qiymətinə əlavə haqq ödənilməlidir. Elə vətəndaşlar da bu fərmanı əllərində əsas tutaraq iki ildir dövlət qurumlarının qapılarında qalıblar.

"Bu qərar 2007-ci ildən qüvvəyə minib. Biz də məhkəməyə müraciət edərək haqqımızı tələb edirik. Ancaq bu vaxta qədər pulumuzu verən yoxdur. Pulu kim alıb, kim yeyib bilinmir" deyə, narazı sakinlərdən olan Həsən Hüseynov bildirir.

Ali Məhkəmənin qərarının icra olunmaması adıçəkilən ünvanda yaşayan 90-dan çox ailəni narazı salıb. Ali Məhkəmə 5 gün ərzində çıxarılan qərarın icra olunmasını tələb edib. Lakin heç bir nəticə yoxdur.

**Narazı vətəndaşlardan biri də Başxanım Abbaslıdır. Dövlət qurumlarının ötür-ötür oyunundan bezdiklərini deyən B.Abbaslı müraciətlərinin ölkə rəhbərliyinə çatdırılmadığını deyir:** "Biz vətəndaşların haqlı olduğu, əlavə olaraq 20 faiz kompensasiyamızın ödənilməsi üçün Ali Məhkəmənin qərarı var. Bu qərarı 2 ildən çoxdur alan vətəndaşlar da var. Ali Məhkəmə qərar çıxardıqdan sonra bir neçə dəfə Hacıbala Abutalıbovun qəbuluna getmişik. Deyir ki, Ali Məhkəmənin qərarının mənim üçün heç bir əhəmiyyəti yoxdur. Dövlətin qərarını saymır. Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərovun da bir neçə dəfə qəbulunda olmuşuq. Oradan da bizi Ədliyyə Nazirliyinə göndərirlər. Nazir Fikrət Məmmədov da bizi bir neçə dəfə qəbul edib. Fikrət müəllim bizə söz verdi ki, bu problemin həllinə nail olmağa çalışacaqlar. Ancaq bu vədlər söz olaraq qalır".

**Sakinlərin şikayətinə cavab olaraq əvvəlcə bildirilib ki, 20 faiz kompensasiya mənzillərin hər kvadratmetrinə görə ödənilən 1500 manata daxil edilib.**

"Bizə deyirlər ki, 20 faiz kompensasiya ödənilən 1500 manata daxil imiş. Əgər bu belə idisə, niyə alqı-satqı müqaviləsində göstərilməyib? Təbii ki, bu bəhanədir. Bu pullar hara və kimlərin cibinə gedib bilinmir. Bizim prezidentə əlimiz çatmır. Prezident Administrasiyasına ünvanladığımız müraciətlərə kimin baxdığını bilmirik. Kimə müraciət edirik "baxarıq" deyib vaxt uzadırlar. Son ümidimiz mətbuatdır. Bəlkə bu iş ictimailəşdiriləndən sonra ölkə rəhbərliyi xəbər tuta. Bilələr ki, dövlət büdcəsindən ayrılan bu qədər pulu kimlər talayır?"- deyə, B.Abbaslı narazılığında bildirir.

Vətəndaşlar bu günə qədər ədliyyə nazirinin və nazirliyin İcra Baş İdarəsinin sabiq rəisi Xanlar Zeynalovun qəbulunda dəfələrlə olublar. İndi həmin idarənin yeni rəisi Nurəddin Rzayevin qəbuluna gedirlər. Yeni rəis də bildirib ki, işi nəzarətə götürəcək.

"Bu vaxta qədər Xanlar Zeynalov bizi başından edirdi. İndi isə Nurəddin Rzayev deyir ki, bu işi nəzarətə götürəcəm. Təbii ki, o da heç bir iş görə bilməyəcək. Nazir bir iş görə bilmirsə, şöbə müdiri nə edəcək?"-deyə, Həsən Hüseynov qeyd edir.

**Artıq üz tutduqları bütün dövlət qurumlarında onları tanıdıqlarını deyən Tofiq Quliyev də eyni problemdən danışır. Onun sözlərinə görə, dəfələrlə Ədliyyə Nazirliyində, Prezident Administrasiyasında qəbulda olublar:** "Hər kəsin məsələdən xəbəri var. Lakin ötür-ötür oyunu gedir. Biz kimdən kimə şikayət edirik? Qəbulda olduğumuz dövlət qurumlarında bildirmişəm ki, prezidentin fərmanı icra olunmursa, biz kimə güvənməliyik? Hacıbala Abutalıbov istədiyi kimi hərəkət edir. Dövlətin qanunu niyə icra olunmamalıdır? Bu qədər müraciətlərimiz, şikayətlərimiz olub. Heç birinə rəsmi cavab verilməyib. Qəbullarda olmuşuq, yalandan şifahi cavab verilib. Bu, dövlətə, prezidentə hörmətsizlikdir. Dövlət başçısının fərmanının icra olunmadığı ölkədə necə ədalət axtarmaq olar?"

Qeyd edək ki, narazı sakinlər bir neçə dəfə Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında aksiya da keçiriblər. Onlar hər dəfə meriyanın qapısından müxtəlif bəhanələrlə yola salınıblar. Onlara gah problemin qısa zamanda həll olunacağı vədi verilib, gah da "hələ ki pul yoxdur" deyərək gözləmələrini istəyiblər.

❑ **İ.MURADOV**



## Sərnişin təyyarəsini qaçıran pilot təslim oldu

**Martın 29-da Misirə məxsus olan sərnişin təyyarəsi silahlı şəxs tərəfindən qaçırılıb. Təyyarədə 81 sərnişinin olduğu qeyd edilirdi.**

"EgyptAir" aviaşirkətinin A320 sərnişin təyyarəsini qaçıran İbrahim Samaha kiprli sabiq həyat yoldaşı ilə görüş istəyib.

Təyyarəni qaçıran şəxs pilotdan Türkiyəyə getməyi tələb etsə də, o, yanacağın kifayət etməyəcəyini bildirib. Buna görə də təyyarə Kiprdə endirilib. Daha sonra isə o, təyyarədən Kiprdəki keçmiş arvadına təqdim etmək üçün məktub atıb, arvadı isə hava limanına gəlib.

Bir neçə saat ərzində həyata keçirilən tədbirlərdən sonra "EgyptAir" şirkətinə aid sərnişin təyyarəsini qaçıran pilot təslim olub.

Musavat.com xarici KİV-lərə istinadən xəbər verir ki, hava qulduru artıq həbs olunub.

# Avropa aeroportlarında təhlükəsizlik tədbirləri aşağı səviyyədədir

## Türkiyəli mütəxəssislər Avropanı tənqid edir, amma...



**Brüssel aeroportunda baş verən məlum terror olayından sonra diqqətlər dünya aeroportlarındakı təhlükəsizlik tədbirlərinə yönəlib. Məlumdur ki, İŞİD Avropanın bütün aeroportlarında öz əlaltılarını yerləşdirib. Bu barədə İŞİD liderlərindən olan Əbu əl-Ənsari bildirib. Ənsari İŞİD-in Avropanın bir sıra strateji obyektlərinin təhlükəsizlik xidmətlərinə nüfuz etdiyini də vurğulayıb.**

Amma bugünlərdə yolu iki Avropa şəhərinin aeroportundan - Budapeşt və Afinadan keçən əməkdaşlarımız deyir ki, qarşılaşdıqları təhlükəsizlik tədbirləri lazımi səviyyədə deyil.

Türkiyənin Hava Limanları Yönetim Qurumunun icra rəhbəri Sani Şener bugünlərdə Türkiyə mediasına verdiyi müsahibəsində deyib ki, Türkiyədəki aeroportlar Avropadan daha təhlükəsizdilər. Şenerin sözlərinə görə, Türkiyədə və dünyada aeroportların təhlükəsizliyi birmənalı şəkildə dövlətləri idarə edən şəxslərin əlində olsa da, icraedici orqan kimi özəl təhlükəsizlik xidmətləri baş rolda görünür: "Avropadakı terminal binaların girişində 'x-ray' cihazları yoxdur, sərnişinin üzərində heç bir axtarış əməliyyatı aparılmır. Hər kəs aeroport binasının içinə girə bilir. Amma Türkiyə aeroportunun girişində axtarış aparılır, "x-ray'lar çalışır və orada bizim özəl təhlükəsizlik xidməti əməkdaşlarımız dayanır. Hətta biz də Avropa ilə ayaqlaşmaq üçün bir müddət təhlükəsizlik tədbirlərini azaltmağı düşünürdük. Hətta bununla bağlı təhlükəsizlik komissiyasının qərarına əsasən, İzmirdə ilk girişdəki "x-ray'lar götürülmüşdü. Bu, sərnişin axınının sürəti və rahatlığı ilə bağlı idi. Amma sonra terror olayları ciddi şəkildə artdığı üçün İzmirdəki "x-ray"ları yenidən bərpa etdik".

Şener eyni zamanda bildirib ki, Brüsseldəki terror olayından sonra Dünya Aeroportları Birliyinin baş katibi onunla danışıb və "x-ray'larla bağlı suallar verib. İlk sualı isə "növbələr uzun olurmu" olub: "Məndən "x-ray"lardan sonra da təhlükəsizliklə bağlı hər hansı axsama ola biləcəyini soruşdu. Mən də bildirdim ki, bu, idarə oluna bilər. Yəni bu, illərdir Türkiyədə var, əsas məsələ sərnişinin təhlükəsizliyi, sonra komfortudur. Məsələn, əvvəl bu "x-ray'lara hirslənən bəzi sərnişinlərimiz indi durumdan məmnundurlar".

**Şener müsahibəsində eyni zamanda Türkiyədəki aeroportları Avropa ilə müqayisə edib. Deyib ki, Türkiyə aeroportları daha etibarlıdır:** "Çünki bölgəmizdəki vəziyyətə, Türkiyənin geopolitik durumuna görə ətrafımızda nələr olduğunu görürük. Çox ciddi sıxıntılar var, Türkiyədə bir çox terror hadisəsi baş verib, içimiz yanıb. Təbii ki, buralarda çox ciddi problemlər olduğu üçün bizdə onsuz da təhlükəsizlik tədbirləri gücləndirilmişdi. Avropa ilə müqayisədə bu girişdəki "x-ray'ların olması çox önəmli bir hadisədir".

Türkiyədəki aeroportlardakı təhlükəsizlik tədbirləri isə mərhələ-mərhələ, aşağıdakı kimi həyata keçirilir: sərnişin girişdəki "x-ray'lardan keçir, ondan sonra baqajlarını təhvil verir, o baqaj aşağıdakı yük axtarma hissəsində tomoqrafiya cihazlarından keçir. Pasport yoxlama şöbəsindən keçdikdən sonra isə əl çantası bir daha axtarılır. Sərnişin ancaq bundan sonra keçidlərə doğru gedə bilir.

"Azərbaycan Hava Yolları" QSC (AZAL) Heydər Əliyev adına Beynəlxalq Hava Limanında və regional aeroportlarda təhlükəsizlik tədbirlərini gücləndirib. AZAL mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski daha öncə mətbuata verdiyi açıqlamada bildirib ki, bu tədbirlər Brüsselin beynəlxalq hava limanında baş verən terror aktı fonunda "Azərbaycan hava yolları" rəhbərliyinin tapşırığına əsasən həyata keçirilir.

Aviasiya təhlükəsizliyi rejiminin gücləndirilməsi ilə bağlı ölkədəki bütün hava limanlarının təhlükəsizlik xidmətlərinə müvafiq tapşırıqlar verilib. Belə ki, Azərbaycanın mülki aviasiya obyektləri mütəmadi yoxlanılır və plan üzrə nəzarət tədbirlərinin gücləndirilməsi həyata keçirilir.

Xatırladaq ki, Brüssel terrorundan sonra Paris, Roma və Frankfurt hava limanlarında, habelə Niderland-Belçika sərhədində, eyni zamanda İsveç, Norveç və Danimarkada təhlükəsizlik tədbirləri gücləndirilib.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 66 (6387) 30 mart 2016

# Bakı yenə yağış suları altında qaldı

**Martın 29-da gecə saatlarından başlayaraq Bakıya intensiv şəkildə yağış yağması bəzi magistral yollarda və küçələrdə böyük gölməçələrin yaranmasına səbəb olub. Bakının bəzi rayonlarında insanlar evlərindən küçəyə çıxmaqda çətinlik çəkiblər. Həmçinin yollarda avtomobillərin hərəkətində məhdudiyyətlər yaranıb. Qeyd edək ki, paytaxt ərazisində güclü yağış yağacağı ilə bağlı hava proqnozu öncədən verilsə də, aidiyyəti qurumların bu istiqamətdə heç bir iş görməməsi Bakının təbiət qarşısında yenidən aciz qalması ilə nəticələnib.**

## Anar Cəbrayıllı: "Paytaxt küçələrinin 88 faizində yağış sularının axması üçün sistem yoxdur"












Hətta paytaxtın ən böyük prospektlərindən olan Ziya Bünyadov prospektində yolu sel basıb, saatlarla davam edən tıxac meydana gəlib.

Musavat.com bu duruma məsul olan qurumlardan problemin səbəbini və hazırda paytaxtda hansı işlərin aparılmasını soruşub.

**"Azəravtoyol" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli ""Yeni Müsavat"a açıqlamasında bildirib ki, əksər yollarda yağış barmaqlıqlarının və kanalizasiya kollektorlarının olmaması bu qurumun günahı deyil:** ""Azəravtoyol"un balansında olan yol təsərrüfatında yağışla bağlı heç bir problem yoxdur. Biz hər hansı iş görmək üçün yağışın yağmasını gözləmirik. Vaxtaşırı bizim tərəfimizdən yollardakı yağış barmaqlıqları təmizlənir, baxış keçirilir. Hazırda da əməkdaşlarımız səfərbər olunub. Çünki yağış suları özü ilə bərabər hər hansı əşya da gətirə bilər, yağış barmaqlıqlarını tıxaya bilər və problem yaşanar. Bu zaman həmin axacaqların təmizlənməsi bizim əməkdaşlar tərəfindən həyata keçirilir. Amma digər məsələlər, bəzi yerlərdə yollarda suyun yığılması bizə aid olan məsələlər deyil. Bizim işimiz yağış barmaqlıqlarının işinə nəzarətdir. Ancaq bir çox yollar var ki, orada yağış barmaqlıqları yoxdur. Bizim balansımızda olan kifayət qədər küçələr var ki, orada yağış barmaqlıqları yoxdur. Bunlar sovet dövründə, həmin dövrün tələbinə uyğun olaraq salınmış küçələrdir. Biz çalışırıq ki, təmir işləri apardığımız bütün küçələrdə əgər kanalizasiya sistemi varsa, orada yağış sularının kənarlaşdırılması üçün yol kənarlarında sistem yaradaq. Bu sistem isə kanalizasiya kollektorlarına qoşulmalıdır. Ancaq əgər yaxınlıqda kanalizasiya kollektorları yoxdursa, təbii ki, biz bunu edə bilmirik. Əgər imkan varsa, biz küçələri təmir edirik. Çünki ilk növbədə bizim özümüzə ziyan vurur ki, təmir olunmuş yola yağış suları dolursa, yolun hərəkət hissəsi sıradan çıxır".

**Anar Nəcəfli yolların təmiri zamanı aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində çalışdıqlarını da bildirdi:** "Biz hər hansı ərazidə yolu təmir edərkən bütün aidiyyəti qurumları, yeraltı kommunikasiya xətləri ilə məşğul olan qurumları xəbərdar edirik. Bəzən bu səbəbdən hansısa yolun təmiri 3-4 ay çəkir. Çünki həm su və kanalizasiya xətləri, həm qaz və elektrik xətləri, həm rabitə xətləri yerin altından keçir. Əgər həmin ərazidə kommunikasiya xətlərinin dəyişməsinə ehtiyac varsa, müraciət olunur ki, dəyişdirilsin və ya yolun hərəkət hissəsindən kənarlaşdırılsın. Bu işlər yekunlaşandan sonra biz təmir işlərini aparırıq. Ötən il ərzində 40-a yaxın küçə və prospekt təmir olunub və biz hər birini təmir edərkən bu qurumlara müraciət etmişik. Bu kommunikasiya xətləri dəyişdirildikdən sonra yollar təmir olunub".

**"Azərsu"ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı da problemin təmsil etdiyi qurumdan asılı olmayan obyektiv səbəblərdən yaşandığını bildirdi:** "Bu gün Bakı şəhərində küçə və prospektlərimizin cəmi 12 faizində yağış sularının axması üçün barmaqlıqlar var. 88 faizində isə yoxdur. Həmin 88 faiz yollarda yığılan sulara görə kim məsuliyyət daşımalıdır? "Azərsu"mu? Əlbəttə ki, yox! Kanalizasiya nədir? Sizin evinizdən, hamamınızdan, idarə və müəssisələrdən çirkab sularını daşıyan sistemdir. Amma yağış sularının axması üçün olan xətlər tamam ayrıdır. Bu gün sizin evinizə, həyətinizə su dolubsa, bunun məsuliyyətini "Azərsu" daşımır. Ancaq əgər evinizdə kanalizasiya sistemi tutulsa, evinizə kanalizasiya suyu dolsa, bunun məsuliyyəti bizim üzərimizdədir. Bu gün Bakı şəhərində küçələrin 88 faizində yağış sularının axması üçün sistem yoxdur. Həmin yerlərdə kanalizasiya sularının daşmasının səbəbi odur ki, yağış sularını oraya yönəldirlər. Yollarda su yığılanda "luk"un qapağını açıb, yağış sularını oraya yönəldirlər, bu xətlər də o suyun axmasını çatdırmadığı üçün daşır. Fərdi həyətlərə dolan suya gəlincə, vətəndaşlar gedib qurunt sularının yığıldığı ərazidə torpaq töküb ev tikirlər, yağış yağanda da həyətlərə su dolur. Bunun günahı "Azərsu"dadırmı?

Bizim yağış sularının axması üçün başqa sistemlərimiz var. Bu gün o sistemlərdən yalnız birində Ziya Bünyadov prospektində problemimiz yarandı. Həmin əraziyə briqadalarımızı göndərdik. Xüsusi maşınlarla yoldan suyu çəkdilər. Hazırda yollarda iş davam etdirilir. "Azərsu" əməkdaşları gücləndirilmiş iş rejimində işləyir".

❑ Nərgiz LİFTİYEVA

# Ayaq yuyub öpərsinizmi...

## "Bu cür davranışlar o yerdə xoş qarşılanır ki, orda dini təsəvvürlər zəifdir"

**Bugünlərdə Roma Papasının ənənəvi ayaq yuma ayinini gerçəkləşdirməsi dünyada maraqla qarşılandı. Belə ki, Papa Fransisk Pasxa bayramı öncəsi - müqəddəs cümə axşamı ayini üçün Roma yaxınlığındakı Kastelnuovo di Porto qəsəbəsinə, 900-ə yaxın miqrant məskunlaşan düşərgəyə gəlib. Burada o, müsəlman, hindu və xristianın da daxil olduğu 12 miqrant və bir italiyalının ayağını yuyub, dəsmalla sildikdən sonra bir-bir öpüb. Papanın bu davranışı dünyanın bir çox yerlərində insanlar tərəfindən xoş qarşılanıb, insanlara olan mərhəmət kimi qiymətləndirilib. Eyni zamanda buna tənqidi yanaşanlar da var...**



Bəs görəsən, bizdə tanınmışlardan kimsə ayaq yuyub öpərmi?

**Millət vəkili Fazil Mustafa** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Millət vəkili qeyd edib ki, müsəlman aləmində belə bir tələb, qayda olmadığı üçün bu cür addımı gözləmək də doğru olmaz:

"Amma mərhəmətin başqa növləri var. İslam dinində bu bir qədər fərqlidir, imkanı olmayan, əlil, şəhid ailələrinə yardım etmək kimi variantlar və sairə. Papanın bu hərəkətindən insanların Allah qarşısında eyni vəziyyətdə hüquq bərabərliyinə sahib olduğu anlamını çıxarmaq mümkündür. Məncə, birinci növbədə başın içini daha təmiz saxlamaq lazımdır. Bizim müsəlman aləmində daha çox ayağa diqqət edilir. Ayaq və əl ibadətdən öncə yuyulur. Bildiyiniz kimi, dəstəmaz almaq da vacib şərtlərdən biridir. Amma ondan önəmli beynin içinin daha xeyirli düşüncə ilə dolmasından çox şey asılıdır. Belə olarsa, yəni müharibə, savaş olmazsa, müəyyən dərəcədə bir-birinin haqqına girmək, Pakistandakı kimi körpə uşaqları partlatmaq kimi bir vəhşilik düşüncəsi, vəhşi əməllər olmazsa, müəyyən dərəcədə bu, xeyirxahlıq mesajı ola bilər. Xristianlıqda, katolik kilsəsində ayaq yuma qaydaları var, bundan vaxtaşırı istifadə olunur. Papanın atdığı bu addım, hər halda, müsbət bir mesaj idi. İnsanların bərabərliyi baxımından kimsənin kimsədən üstün olmadığı, bəzən böyük olmaq üçün kiçiklik etməyi bacarmağın vacib olduğunu insanlara çatdıran bir mesaj kimi qiymətləndirilir".

KXCP sədri Mirmahmud Mirəlioğlu isə məsələyə bu cür münasibət bildirdi: "Bu cür davranışlar o yerdə xoş qarşılanır ki, orda dini təsəvvürlər zəifdir. Yəni gözlənilməz addım kimi qarşılanır, sanki bir şok yaşandı və sairə. Bu ayin katolik və pravoslavlarda var. Bundan da çox zaman lazım olanda siyasi kampaniya kimi istifadə olunur. Lakin hər zaman deyil, nə zaman istəyirlərsə o zaman. Papanın bu davranışı da bir yerinə düşdü, istifadə etdi. Orda qaradərilidən tutmuş, müsəlmanlara qədər şəxslər var idi. Belə təqdim etdilər. Yəni burda din adında bir şey yoxdur, Roma Papası da Amerika açmayıb.

Bizim dinimizdə ayaq yuma məsələsi yoxdur. Amma əl öpmə, bağrına basma var və sairə var. Hətta fars üç dəfə, türk iki dəfə öpüşür. Ayaq yumaq hansısa inancda varsa, biz bunu qəbahət hesab etmirik".

**ADP sədri Sərdar Cəlaloğlu da vurğulayıb ki, dinimizdə belə bir adət olmadığı üçün ayaq yuyub öpmək günah hesab edilə bilər:**

"Bu, Roma Papasının kəşfi deyil, İsa peyğəmbərin vaxtından qalan dini ayindir. İsa peyğəmbər o zaman xəstələrin ayaqlarını yuyub öpüb, bununla da peyğəmbərlərin xalqa bir xidmətçi kimi göndərilməsini nümayiş etdirib. Roma papaları İsa peyğəmbərin bu hərəkətini təkrar edirlər. Beləliklə, 2 min ildir ki, Roma papaları Pasxa bayramında xəstələrin, əsirlərin, çətinlikdə olan insanların ayaqlarını yuyub öpür, bununla da İsa peyğəmbərin yolunu davam etdirdiklərini sübut edirlər. Qurani-Kərimə əsasən hər bir qövmün öz əmrləri var. Biz xristianların, yəhudilərin əmrlərini yerinə yetirmirik. Ona görə də bizim peyğəmbərimizin belə bir hərəkəti, adəti olmadığına görə bu ayini yerinə yetirmək bizə günah olar".

Qeyd edək ki, xristianların inanclarına görə, Həzrəti İsa çarmıxa çəkilmədən bir gün öncə sevgisini nümayiş etdirmək üçün 12 həvarisinin ayağını yuyub.

❑ Xalidə GƏRAY

# Bakıda tibb bacısı özünü 7-ci mərtəbədən atdı





**Bakıda intihar hadisəsi baş verib. Nizami Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Naxçıvanski 81a ünvanında qeydə alınıb. Bakı şəhər sakini, 1975-ci il təvəllüdlü Jalə Nizami qızı Teymurova 16 mərtəbəli binanın 7-ci mərtəbəsindən özünü atıb. Nəticədə o, aldığı xəsarətdən hadisə yerindəcə keçinib.**

İntiharın səbəbləri məlum deyil.

Polisdən bildirilib ki, Jalə Teymurova Bakıdakı tibb müəssisələrindən birində tibb bacısı işləyib.

Faktla bağlı Nizami Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanıb, istintaq gedir.

Hadisə barəsində ətraflı məlumat öyrənmək üçün musavat.com-un əməkdaşı qeyd edilən ünvanda olub. İntiharın baş verdiyi əraziyə yaxın yaşayan sakinlərin sözlərinə görə, xəbər bu gün yayılsa da hadisə ötən həftə baş verib.

Yeni tikilən 16 mərtəbəli binanın 7-ci mərtəbəsindən özünü ataraq intihar edən Bakı şəhər sakini, 1975-ci il təvəllüdlü Jalə Nizami qızı Teymurovanın əslində bu binada yaşamadığı bildirilir.

İntihar hadisəsinin baş verdiyi bina hələ tam hazır deyil. Binanın ətrafı natəmiz vəziyyətdədir. Ərazidə nəzarətçi, qarovulçu da yoxdur.

Ətrafdakı evlərdə yaşayan sakinlər təsdiqləyirlər ki, bina hələ tam hazır olmadığı üçün burada hər mənzildə yaşayış yoxdur. Ona görə də bina girişində də qapı hər zaman açıq qalır. Jalə Teymurovanın hansı səbəbdən intihar etməsi isə məlum deyil.

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclərın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Narkomanları məcburi müalicəyə göndərəcəklər

**Azərbaycanda "Psixiatriya yardımı haqqında" Qanuna müəyyən dəyişikliklər edilir. «Trend»in məlumatına görə, bu barədə Milli Məclisin Səhiyyə komitəsinin dünən keçirilən iclasında bildirilib.**

İclasda qeyd edilib ki, "Psixiatriya yardımı haqqında" Qanuna təklif edilən yeni dəyişikliklərə əsasən, psixi pozuntusu ilə əlaqədar barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxs psixiatriya stasionarından yalnız həmin məcburi tədbirlərin tətbiqinin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında məhkəmənin qərarı əsasında çıxarılır.

Qanunun hazırkı varinatına görə isə məhkəmə qətnaməsi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş pasiyent psixiatriya stasionarından yalnız təyin edilmiş məcburi müalicəyə xitam verilməsi haqqında məhkəmənin qətnaməsi əsasında çıxarılır.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, "Psixiatriya yardımı haqqında" Qanuna dəyişiklik etməkdə məqsəd onu "Cinayət-Prossesual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanuna uyğunlaşdırmaqdır: "Həmin qanunda psixi pozuntusu olan şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ya ləğv edilməsi məsələlərinə məcburi müalicəni həyata keçirən tibb müəssisəsinin müdiriyyətinin təqdimatı və həkim- psixiatr komissiyasının rəyi mütləq şəkildə nəzərə alınmaqla, həmin tədbirlərin tətbiq edildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılması nəzərdə tutulur".

Qanun layihəsi qəbul olunması məqsədilə Milli Məclisin plenar iclasına tövsiyə edilib.


## Elan

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**

**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**





# Rabitə Nazirliyinə zərər vuranlar yaxalandı

**Mart ayı ərzində müxtəlif vaxtlarda Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin Xətai Telefon Qovşağından Binəqədi rayonu ərazisində ümumilikdə 920 metr rabitə kabellərinin oğurlanması və nəticədə dövlətə külli miqdarda ziyan vurulması barədə rayon polis idarəsinə məlumat daxil olub.**

Daxili İşlər Nazirliyindən musavat.com-a bildirilib ki, həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən rayon sakini Abbas Əliyev tutularaq istintaqa cəlb edilib.

Müəyyən edilib ki, A.Əliyev müxtəlif vaxtlarda rayondakı ayrı-ayrı ünvanlardan telefon və internet kabellərini kəsərək yaşadığı evin həyətinə gətirib. Daha sonra həmin kabellərdəki misi çıxararaq Qorxmaz Davudov və Faiq Rəhimova məxsus metal qəbulu məntəqələrinə satıb.

Əməliyyat tədbirlərinin davamı olaraq Q.Davudov və F.Rəhimov da saxlanılıblar.

İstintaq zamanı müəyyən edilib ki, Q.Davudov oğurluq malları Sumqayıt şəhərində yerləşən "Bakı Mis İstehsalı" MMC-yə, F.Rəhimov isə Qaradağ rayonu Lökbatan qəsəbəsi ərazisindəki "Elit Yatırım və Ticarət LTD STİ" MMC-yə təhvil verib.

A.Əliyevin yaşadığı evə baxış keçirilərkən əlavə olaraq yüksək keyfiyyətli və müasir rabitə qurğuları üçün nəzərdə tutulan 110 metr optik kabel də aşkar edilərək götürülüb.

Rabitə kabellərinin oğurlanması barədə daxili işlər orqanlarına daha bir məlumat isə "Aztelekom" İB-in Sumqayıt Şəhər Telekommunikasiya Qovşağından daxil olub. Müraciətdə işlək vəziyyətdə olan 32 metr uzunluğunda kabelin dirəklərdən kəsilərək aparıldığı bildirilib.

Sumqayıt Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törətmiş şəhər sakinləri, əvvəllər məhkum olunmuş Elvin Nəsrullayev və Hikmət Fərəcov saxlanılıblar.

Hər iki faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, araşdırmalar davam etdirilir.

Yeri gəlmişkən, o da qeyd olunmalıdır ki, əlvan metalların məntəqələr tərəfindən alqı-satqısı zamanı heç bir sənədləşmə olmur və bütün əməliyyatlar nağd hesablaşmalar vasitəsilə aparılır.

Daxili İşlər Nazirliyi əlvan metalların qəbulunu və satışını həyata keçirən vətəndaşlara, həmçinin özəl müəssisə və qəbul məntəqələrinin sahiblərinə, bu işlə məşğul olan bütün sahibkarlara müraciət edərək bildirir ki, öz fəaliyyətlərini Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun şəkildə qursunlar.

# Bakıda hüquq məsləhətxanasında faciə

**Bakıda yerləşən hüquq məsləhətxanalarından birində bədbəxt hadisə baş verib. Lent.az xəbər verir ki, martın 28-də axşam saatlarında Bayıl qəsəbəsi Neftçi Qurban küçəsi 74 ünvanında yerləşən məsləhətxanada 1962-ci il təvəllüdlü Məmmədov Bəxtiyar Heydər oğlunu elektrik cərəyanı vurub. 54 yaşlı kişi hadisə yerindəcə keçinib.**

Faktla bağlı araşdırma aparılır.

# Avtomobil piyadanı vurub öldürdü

**Bakıda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, martın 28-də saat 22 radələrində Xəzər rayonunun Türkan qəsəbəsində Bakı şəhər sakini Rasim Əlipaşayev idarə etdiyi "VAZ-2101" markalı avtomobillə yolu keçən Yevlax rayon sakini Kamran Səlimovu vurub. K. Səlimov hadisə yerində ölüb. Xəzər Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.**


## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 66 (6387) 30 mart 2016

# Bakıdakı gurultunun səbəbi: hərbi plan, yoxsa mistika?

**Martın 27-də saat 12 radələrində Bakının Səbayel və Yasamal rayonları ərazisində müəmmalı gurultu eşidilib. Həmin səs o qədər güclü olub ki, hətta binaları da titrədib. Həmin səslə paralel Badamdar qəsəbəsi ərazisində hiss edilən səs və binaların titrəməsi insanlar arasında təlaşa səbəb olub. Kimiləri bunun haradasa vulkan baş verməsi nəticəsində olduğunu düşünür, kimisi isə mistika ilə əlaqələndirir və qiyamət gününün yaxınlaşmasını xəbər edən bir səs olduğunu deyir.**

Bəs əslində səbəb nədir?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli bunun zəlzələ olmadığını deyib: "Bizim üçün də bu gurultunun nə olduğu maraqlıdır. Nədirsə, axtarıb tapmaq lazımdır. Amma bunu tapmaq bizim işimiz deyil. Biz yalnız ona deyə bilərik ki, bu gurultunun zəlzələ ilə heç bir əlaqəsi yoxdur".

**Astroloq Firudin Qurbansoy** isə bunun bizi sevməyən bəzi dövlətlərin hərb işi olduğunu dedi: "Hər şeyi mistik yozmaq olar. Mənə elə gəlir ki, bu, sadəcə olaraq, bizə dost olmayan hərbçilərin planı idi. Onlar hansısa silah dalğası buraxıblar. Bakı və Abşeron elə bir yerdir ki, burada çoxlu köhnə neft mədənləri var. Ona görə də burada böyük zəlzələlər olmur, ola da bilməz. İndi iqlim silahları var. İstədikləri yerdə nə istəsən edə bilirlər. Mənə elə gəlir ki, bu bizə dost olmayan, son vaxtlar bizi sevməyən, bizə dişini qıcatmaq istəyən qüvvələrin hərbi əməliyyatıdır. Bunun astrologiya, planetlər və Günəşlə heç bir əlaqəsi yoxdur".

**Binaların silkələnməsinə səbəb olan yer təkindəki titrəmənin Qobuda baş verdiyini deyən Milli Elmlər Akademiyası (AMEA) Geologiya İnstitutunun Palçıq vulkanizmi şöbəsinin rəhbəri, professor Adil Əliyev isə "Trend"ə açıqlamasında bildirib ki, Qobudakı titrəmə vulkanların oyanmasına təsir göstərməyib və göstərəcəyi də gözlənilmir.** "Həmin titrəmənin nə vulkan, nə də zəlzələ ilə heç bir əlaqəsi olub. Haradasa partlayış olubsa, o demək deyil ki, bu vulkandır, ya da zəlzələdir" - deyən professor Qobudakı titrəmənin səbəbi, mənbəyi barədə izahat verməyib.

**Professor, geologiya-mineralogiya elmləri doktoru, Zəlzələlərin Proqnozlaşdırılması üzrə Qlobal Şəbəkənin (GNFE) prezidenti, azərbaycanlı alim Elçin Xəlilov isə izahedilməz səslərin Günəşdə baş verən kataklizmlərin nəticəsi olduğunu deyib.** "Günəş enerjisi Yer kürəsinə axını zamanı maqnitosferlə toqquşur ki, bu da xüsusi akustik dalğalara çevrilir. Bundan sonra həmin dalğalar Yer səthinə yönəlir. Bu dalğaları xüsusi cihazlar vasitəsilə eşitmək olar. Lakin bu səslər aşağı tezliklə şəhər səs-küyünə uyğunlaşanda bəzi insanlar bunu eşidə bilərlər", - E.Xəlilov bildirib.



Bu səsin bir çox şahidlərdə təlaşa səbəb olmasını E.Xəlilov aşağı tezlikdə olması ilə əlaqələndirib. Aşağı tezlikli səs insan qulağı ilə eşidilməsə də, insan psixikasına mənfi təsir göstərir. Bu, fransız professor Qavronun araşdırmalarında öz təsdiqini tapıb. Bununla yanaşı, alimin fikrincə, bu gurultunu hər hansı bir anomal hadisə ilə əlaqələndirmək tezdir.

Fiziklər isə bildirirlər ki, bu səslərin spektri heç vaxt məlum olmur. Eşidilən səslər əsl səsin yalnız kiçik hissəsidir. Bu səslər 20-100Hz arasındakı ultra-az tezliyindəki akustik emissiyaları və 0.1-15Hz arasında ultra-az infrasonik olan dalğalardır. Geofizikada bunlara akustik cazibə dalğaları deyilir. Atmosferin yuxarı qatlarında, xüsusilə ionosferdə olur. Bu dalğaların yaranmasının bir sıra səbəbləri var. Məsələn, zəlzələ, vulkan partlayışları, qasırğa, sunami və s. Lakin təbii fəlakətlərin yaratdığı səslər eşidilən naməlum gurultudan daha zəifdir. Fiziklərə görə, belə bir səs üçün yüksək enerji tələb olunur. Bu, həmçinin dünyaya çırpılan ionosfer, atmosferin yuxarı qatını və mezosferi qeyri-sabit vəziyyətə gətirən Günəş partlayışı və enerji axınları da ola bilər.

## Firudin Qurbansoy: "Bu, bizə dost olmayan hərbçilərin planı idi"

Bu müəmmalı gurultu ilə bağlı müəyyən versiyalar irəli sürülsə də, hələlik dəqiq səbəb bilinmir. Qeyd edək ki, DİN və Dövlət Təhlükəsizlik Xidmətindən də məsələ ilə bağlı münasibət bildirilməyib.

❑ **Günel MANAFLI**

# Azərbaycanda "ucuz bilet" kampaniyaları başladı, amma...

## Azərbaycanlılar əl baqajı məsələsində ciddi problem yaşayır və yaşadırlar

**Azərbaycan Hava Yolları QSC (AZAL) Bakı-İstanbul reysi üzrə biletlərin qiymətini aşağı salıb. Yeni tariflə Bakıdan İstanbula gediş-dönüşün minimal qiyməti 179 manat olub. Bu məbləğə yalnız gediş-dönüş bileti daxildir və yerlər məhduddur. Uçuşlar həftənin hər günü həyata keçirilir.**



Bu addım böyük ehtimalla martın 19-dan etibarən "Pegasus" firmasının Qəbələdən İstanbula və Avropanın şəhərlərinə gerçəkləşdirdiyi səferlərə cavab olaraq atılıb. Çünki sözügedən firmanın Qəbələ - İstanbul reysi 38 avro, Qəbələ - Bodrum reysi 54 avro, Qəbələ - Barselona turu 75 avro idi. Əksər Avropa ölkələrinə təşkil olunmuş turların qiyməti isə 79 avro məbləğində idi. Təbii, söhbət birtərəfli səfərdən gedir.

İndiki halda isə AZAL Bakı-İstanbul-Bakı biletini 179 manata satmaqla rəqabət mühitini xeyli hərəkətləndirir. Martın 27-dən etibarənsə "Ukrayna Beynəlxalq Hava Yolları" (MAU) şirkətinin Kiyev-Bakı-Kiyev, Odessa-Bakı-Odessa və Kiyev-Riqa-Kiyev reyslərində "yalnız əl yükü" tarifləri qüvvəyə minib. MAU aviaşirkəti sərnişinlərin "yalnız əl yükü" tarifi üzrə bilet ala biləcəkləri müntəzəm reyslərin siyahısının genişləndirilməsini elan edib. Belə tarif yüksüz səyahətçilərin daha ucuz qiymətə bilet alaraq qənaət etmələrinə imkan verəcək.

Bu reyslərə bilet alarkən sərnişinlər üç mümkün seçimdən birini seçə biləcəklər: yüksüz (ekonom-klass) uçuş, çəkisi 23 kq-a qədər olan bir yük yeri ilə uçuş (ekonom-klass) və ya hər birinin çəkisi 23 kq-a qədər olan iki yük yeri ilə uçuş (biznes-sinif).

Əgər biletin qiymətini "yalnız əl yükü" tarifi üzrə ödəmiş sərnişinə sonradan yüklə uçmaq lazım gələrsə, bir istiqamətdə birinci yük yerinin daşınması 15 dollara başa gələcək. Bu şərtlə ki, ən geci uçuş vaxtına 24 saat qalmış ödəniş edilsin. MAU-da "yalnız əl yükü" tarifləri ilə bağlı eksperimenti uğurlu hesab edirlər.

MAU-dan deyiblər: ""Yalnız əl yükü" tarifləri ilə bağlı eksperimentə start veriləndən bəri Vilnüsə (Vilnüsdən) uçan reyslərin 3 mindən çox sərnişini və Təl-Əvivə (Təl-Əvivdən) uçan reyslərin 11 mindən çox sərnişini bu tariflərdən istifadə edib. Bu, həmin tarifli reyslərin siyahısını genişləndirməyə əsas verir".

Gələcəkdə "yalnız əl yükü" tariflərini bir sıra Avropa marşrutlarında da tətbiq etmək planlaşdırılır.

"Yalnız əl yükü" tarifləri mövcud tarif şəbəkəsinə əlavə olaraq tətbiq edilib. MAU-nun bütün reyslərinə əvvəlki qaydada, yəni qeydiyyata alınmış yük yerinin dəyəri daxil edilmiş biletləri də almaq olar.

Amma burda bir detal var: ucuz biletlərə bir qayda olaraq, yemək və baqaj xərcləri daxil deyil. Bəzi hallarda isə baqaja pul ödəmək istəməyən sərnişinlər arasında təyyarədə ciddi insidentlər yaşanır. Belə ki, əlində bir neçə çanta və iri çamadan olan sərnişinlər onların hamısını "əl baqajı" kimi təqdim edir və bu, salonda yerləşdirmə zamanı ciddi problemlərə səbəb olur. Çünki hər kəs oturduğu yerin üstündəki baqaj yerini öz yükü ilə doldurur. Bir sırada 6 nəfərin oturduğunu nəzərə alanda isə yer qıtlığı yaşanır. Stüardessaların mübahisəyə müdaxiləsi də bəzən problemi həll etmir. Çünki salondakı baqaj yeri məhdud olur.

❑ **Sevinc TELMANQIZI**



# Üç ildə Azərbaycanda müxtəlif səbəblərdən 286 tələbə ölüb

**2012-ci il martın 28-dən 2015-ci ilə qədər təhsil müəssisələri tərəfindən tələbə kontingentinin idarə edilməsi üzrə "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə ümumilikdə 499 077 məlumat daxil edilib. "Report"un məlumatına görə, bu barədə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının apardığı 2015/2016-cı tədris ili üçün imtahan nəticələrinin elmi-statistik təhlilində bildirilir.**

Statistika ali təhsil və orta ixtisas pilləsi üzrə hesablanıb.

Məlumata görə, bu müddət ərzində sistemə daxil edilən statistika aşağıdakı kimidir:

Əcnəbi və vətəndaşlığı olmayan tələbələrin qəbulu- 5 512,

Xarici təhsil müəssisələrindən köçürmələr - 10 486

Ölkədaxili köçürmələr - 8 886

İxtisas dəyişmələri - 9 495

Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ixtisas dəyişmələri - 28

Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ölkədaxili köçürmələr - 33

Akademik borca görə xaricedilmələr - 7 488

Digər təhsil müəssisəsinə köçürülmə ilə əlaqədar xaricedilmələr - 6 174

Təhsil haqqının ödənilməməsinə, dərs buraxmaya görə və ya öz xahişi ilə xaricedilmələr - 17 165

Təhsil müəssisəsinin fəaliyyətinin dayandırılması ilə əlaqədar xaricedilmələr - 7 574

Təkrar kursda saxlanılmalar - 2 334

Bərpalar - 22 391

Şəxsi məlumatların dəyişməsi - 13 646

Ölüm halları - 286 (bakalavriat səviyyəsində 167, magistraturada 5, tam orta təhsil bazasında 49, ümumi orta təhsil bazasında isə 65 nəfər)

Diplomalma - 339 388.

Qeyd edək ki, təqdim olunan material TQDK, ali və orta ixtisas təhsili müəssisələri tərəfindən "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilən məlumatlar əsasında hazırlanıb.

# YENİ MÜSAVAT

## Son səhifə

N 66 (6387) 30 mart 2016




## Balinaların mədəsindən maşın motoru çıxdı...

Almaniyanın Töninq şəhərində ötən gün maraqlı hadisə baş verib. Sahildə cəsədləri tapılan 13 balina şəhər əhlini şoka salıb. Müayinədən keçirilən balinaların mədəsindən plastik vedrə, maşın motorunun parçası, çoxlu sayda balıq çıxıb. Mütəxəssislər isə bildiriblər ki, balinalar məhz mədələrini bu cür zir-zibillə doldurduqları üçün ürək çatışmazlığı və həzm problemi yaşayıblar, nəticədə isə tələf olublar.



## Keçi telefon xətlərinin üstündən sallandı

Yunanıstanda buynuzları telefon xətlərindən asılı qalan keçini görənlər gözlərinə inanmayıb. Keçinin xilas olması üçün böyük cəhdlər edilib. Telefon xətti isə yerdən təxminən 6 metr hündürlükdə olub. Keçini asılı qaldığı yerdən xilas etmək üçün xilasetmə əməliyyatı aparılıb. Öncə bir nərdivanın köməyi ilə keçinin qarnından itələyərək yamaca doğru sıxışdırıblar. Ayağına bağlanan iplə çəkilərək yerə yaxınlaşdırılan keçi sonunda bir ağaca ilişib. İpi keçinin ayağından çıxarıblar və bununla da əməliyyat yekunlaşıb. Çox qorxan keçi xilas əməliyyatından dərhal sonra sürətlə ordan uzaqlaşıb. Amma onun yerdən 6 metr hündürlükdə olan telefon xətlərinə necə ilişməsi özü boyda sualdır.

## Almaniya qatarlarında qadınlar üçün özəl bölüm

Almaniyanın şərqindəki Lepziq-Chemnitz şəhərləri arasında səfər edən qatarlarda qadınlar üçün özəl bölümlər hazırlanacaq. Almaniyanın Dəmir Yolu İdarəsindən verilən açıqlamada bildirilir ki, təkbaşına və uşaqla səyahət edən qadınlar üçün qatarın içində iki ayrı bölüm yaradılacaq. Açıqlamada həmçinin bildirilib ki, bununla da qadın sərnişinlər səfər boyu özlərini təhlükəsiz hiss edəcəklər. Qadınlara ayrılan bölümlər maşinist və dəmir yolu işçilərinə aid hissəyə daha yaxın olacaq. Bundan başqa, Almaniya dəmiryolları hazırda yataqlı qatarlarda da təkbaşına səyahət edən qadınlar üçün özək bölüm imkanı yaradır.




## Uşağınız riyaziyyatdan qorxursa.... sevinin...

**Böyük Britaniyada riyaziyyatdan qorxan uşaqlarla bağlı araşdırma aparılıb. İkinci və üçüncü sinif şagirdlərinin beyinlərinin skan edilməsi zamanı tənliyin bir növünün beyni təşviş və qorxu ilə bağlı aktivliyə təhrik etdiyi məlum olub. Bu zaman beynin riyazi tapşırığın həllinə görə cavabdeh olan hissəsinin aktivliyi azalır.**

Professor Vinod Menonun sözlərinə görə, 50-yə yaxın məktəblinin beyni skan edilib. Bundan sonra riyazi tapşırığın doğurduğu həyəcanın dərəcəsi sual vərəqələri və testlərlə qiymətləndirilib: "Qeyd etmək lazımdır ki, bu fenomen 50 il bundan əvvəl aşkar edilib. Lakin indiyədək heç kim adamların nə üçün riyaziyyatdan qorxduqları araşdırmağa cəhd göstərməyib".

Neyrobiologiya baxımından riyaziyyat qarşısında qorxu başqa qorxulara oxşayır. Ekspertlərin sözlərinə görə, güclü həyəcan keçirən uşaqlar həyəcanlanma göstəricisi daha az olanlarla müqayisədə daha az dəqiq olmaları və tapşırıqları yavaş həll etmələri ilə fərqlənirlər.

Yəni qorxu beyinin qoyulmuş məsələni həll etmək qabiliyyəti ilə birlikdə informasiyanı emal etmək qabiliyyətini tormozlayır. Bunun təkamül mexanizminin bir hissəsi olması mümkündür. Belə ki, o, daxili səbəblərdən törəyən təhlükə şəraitində beyni intuisiya əsasında hərəkət etməyə məcbur edir.





## 21 yaşlı qız həyatında ilk dəfə meyvə yedi və...

Britaniyanın Portsut şəhər sakini 3 yaşından bəri fast food məhsulları ilə qidalansa da, 21 yaşında öz adətini dəyişib. Lenta.ru saytının verdiyi xəbərə görə, 21 yaşlı Corci Skotni bəzi qida məhsullarını yeyə bilməməkdən əziyyət çəkirdi. Onun dietası bəzi məhdud yeməklərdən ibarət idi. Ona görə də qızda ona naməlum olan yeməklərlə bağlı ciddi qorxu yaranıb. Bir neçə il Skotni ancaq çörək, çips və KFC firmasından olan toyuq, şokoladlı şirniyyatlarla qidalanıb. Mütəmadi olaraq idmanla məşğul olmasına baxmayaraq, qız qida rasionuna görə ağır çəkidən əziyyət çəkib. Mədə genişlənməsi yaşayan qızcığaz, nəhayət, hipnoz seanslarına qatılıb. Bu seanslar isə onu naməlum yemək qorxusundan azad edib: "Hər şey dəyişdi. Mən bu günə qədər dadmadığım yeni qidalar yeməyə başladım. Mən 15 ildir ki, ingilis səhər yeməyini arzulayırdım. Ancaq indi onun zövqünə vara bildim".

## Qoroskop




**QOÇ** - Öz bürcünüzün "hakim" dövrü olsa da, bu, bədbin ovqatınıza heç bir müsbət təsir göstərməyəcək. Çünki bu bədbinliyi özünüz yaradırsınız. Odur ki, baxışlarınızda köklü dəyişikliklər etməyə çalışın.

**BUĞA** - Bəri başdan nəzərinizə çatdıraq ki, ixtiyarınıza olduqca məsuliyyətli bir gün düşüb. Belə ki, saat 11-dən etibarən çoxlu sayda yeniliklərin şahidi olacaq, maraqlı təkliflər alacaqsınız.

**ƏKİZLƏR** - Kifayət qədər düşərli bir zaman kəsiyindən keçəcəksiniz. Bu prosesi daha ideal səviyyəyə yüksəltmək üçün ətrafınıza sadiq tərəfdaşlar toplamalısınız. Günün "ən varlı" zodiak işarəsi də siz olacaqsınız.

**XƏRÇƏNG** - Bu təqvimdə sizi narahat edən əksər sahələrdə - qarşılıqlı münasibətlərdə, maliyyə məsələlərində, həmçinin fəaliyyətdə müsbət nəticələr əldə edəcəksiniz. Yalnız nahar vaxtı xırda mübahisələriniz mümkündür.

**ŞİR** - Risk etməyə lüzum yoxdur. Çünki hazırkı durumunuz ifrat əsəbiliyinizdən xəbər verir. Amma ailə-sevgi münasibətlərində, eləcə də kollektivlə davranışda mülayimlik göstərsəniz, işləriniz qaydasına düşəcək.

**QIZ** - Hansısa narahatçılığa əsas yoxdur. Qarşınıza qoyduğunuz məqsədlərə çatmaq üçün bütün gücünüzü işə salmalısınız. Bu gündən etibarən fəaliyyətlə bağlı geniş imkanlar yaranacaq. Heç bir olayı mistikləşdirməyin.

**TƏRƏZİ** - Planetlərin bürcünüzdəki neqativ düzülüşü bütün ciddi işləri təxirə salmağı tövsiyə edir. Əks təqdirdə çoxsaylı uğursuzluqlarla rastlaşacaqsınız. Köhnə mübahisələrə, yarıtmaz tərəfdaşlarla haqq-hesab çürütməyə qayıtmayın.

**ƏQRƏB** - Günün tələbi odur ki, həmişə başqalarını müzakirə etməkdənsə öz ideya və məramlarınızı analiz edin. Dedi-qodu və qeybət bütün planlarınızı poza bilər. Həyata ayıq gözlə baxın, özünüzə qarşı tələbkar olun.

**OXATAN** - Revmatik probleminiz varsa, bir qədər diqqətli olmalısınız. Gün ərzində yeni simalarla tanış olacaqsınız ki, bu da gələcəkdə işlərinizin sürətlənməsinə təkan verəcək. Nahardan sonra şəxsi büdcənizdə müəyyən artımlar olmalıdır.

**OĞLAQ** - Xırda maliyyə problemlərinə görə narahat olmayın. Çünki elə səhər saatlarından bu istiqamətdə uğurlarınız bol olacaq. Siz əsas məqsədi işgüzar sövdələşmələrə yönəldin ki, perspektivlərinizə yol açılsın.

**SUTÖKƏN** - Saat 14-ə qədərki vaxtı səbrlə başa vursanız, qalan müddətdə hansısa xoşagəlməzlik olmayacaq. Çünki ulduzlar bu gün şəxsi işlərinizdə böyük dönüş yaratmaq istəyir. Bunun üçün sadəcə, əzmkarlığınızı artırmağınız kifayətdir.

**BALIQLAR** - Qarşınızda duran vəzifələrin öhdəsindən gəlmək, sizə güvənən insanların etimadını qazanmaq başlıca vəzifənizə çevrilməlidir. Bu gün iş yerini dəyişmək fikrinə də düşməməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Öncə qadınlar qərar verir, sonra kişilər geyinir...



İngiltərədə populyar bir geyim markası kişilərin geyim seçimi ilə bağlı araşdırma aparıb. Araşdırmaya qatılan kişilərin böyük bir qismi bildirib ki, işə gedərkən nə geyinəcəklərini sevgililərindən, həyat yoldaşlarından soruşurlar. Özü də bu, təkcə rəy öyrənməklə kifayətlənmir. Qadınlar kişinin nə geyinəcəyinə qərar verirlər. Rəyi soruşulan 1000 kişidən 500-ü təsdiqləyib ki, geyinəcəyi geyimin forması, rəngi, qalın-nazik olması ilə bağlı rəyi həyatlarındakı qadın söyləyir. Subay oğlanlar bu barədə çox vaxt analarının da fikrindən istifadə edir. Bundan başqa, araşdırmaya qatılan kişilərin 6 faizi alış-veriş etməkdən xoşlandığını da etiraf edib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750